

## Nazirlər Zəngəzur dəhlizini müzakirə etdi

*Nazirlər arasında geniş tərkibli görüş keçirilib. Azərbaycanla Belçika arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, regional vəziyyət müzakirə edilib. Sonra nazirlər brifinq keçirildi və nazirlər mövqelərini ifadə etdilər. Naziri Ceyhun Bayramov: "Biz xanım nazirlə həm təkbətək, həm də geniş tərkibli görüş zamanı iki ölkə, Azərbaycan və Avropa İttifaqı...*

Səh.3



## Zakir Qaralova məxsus şirkətin adı yeni qalmaqalda


# UNİKAL

№31 (2165) 25 avqust 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru


Səh.5



## İcra başçılarının böyük "yarpaq tökümü"

## "Akkord"a qarşı məhkəmə iddialarının ardı-arası kəsilmir

*"Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC barəsində inzibati protokol tərtib olunub.*

Şirkət İnzibati Xətalar Məcəlləsinin 430.4-cü (Avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmaması) maddəsi ilə ittiham olunur. İş baxılması üçün Nərimanov Rayon Məhkəməsinə göndərilib. 430.4-cü maddəyə əsasən, vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin 10 faizindən 20 faizinədək məbləğdə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin 20 faizindən 30 faizinədək məbləğdə cərimə edilir. Xatırladaq ki, adıçəkilən şirkətin qeyri-rəsmi sahibi olduğu bildirilən sabiq Baş prokuror Zakir Qaralovun bu postu itirməsindən sonra "Akkor"a qarşı məhkəmə iddiaları və cərimələrin intensivləşdiyi hiss edilir.

Səh.8

## "Azərbaycanın beynəlxalq hüququn verdiyi legitim hüquqları var"



*Milli Məclisin deputatı Vüqar İskəndərov "Unikal"a müsahibə verib. O, son vaxtlar Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatların artmasından, Azərbaycan Ordusunun anti-terror əməliyyatı keçirə biləcəyindən, ermənilərin Qarabağı tərk etməsindən və Ermənistanın sülh...*

Səh.4

## General Orucovun 12 il 6 ay həbsi tələb olundu



*"Tərtər işi" ilə bağlı ittiham olunan general-mayor Bəkir Orucov, İntiqam Məmmədov, Rahib Məmmədov, Ziya Kazımov və Ülvi Rəşidovun məhkəmə istintaqı başa çatıb.* "Qafqazinfo"nun əldə etdiyi xəbərə görə, Sumqayıt Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda prokuror...

Səh.10

## Azərbaycanın dövlət-ictimaiyyət həmrəyliyi modeli



*Dövlət maraqları bütün maraqlardan üstün tutulan cəmiyyətlərdə dövlətçiliyə və onun təhlükəsizliyinə təhdid halları az-az baş verir. Belə müdaxilələrin qarşısı dərhal cəmiyyətin sərt reaksiyası ilə alınır. Ona görə də, dövlət maraqlarının müdafiəsi hər bir cəmiyyətin başlıca məqsədlərindən sayılır. Bəzən dövlət maraqları...*

Səh.11

# “Fədayə ilə yaxın münasibətimiz olub, gecə deyirdim ki...” - Tacir Şahmalıoğlu

***Tacir Şahmalıoğlu keçmiş duet ortağı Fədayə Laçınla aralarında olan münasibətindən danışıb.***

İfaçı bu haqda Space telekanalında yayımlanan ”Xoş gəldim” proqramına danışıb.

O, F.Laçınla vaxtilə aralarında yaxın münasibətləri olduğunu deyib: ”Mən həmişə Fədayənin ad günlərində, hər hansı məclisində mütləq iştirak etmişəm, edə bilməsəm belə zəng vurub gözaydınlığı vermişəm. Çünki Fədayə yaxşı qızdır. O ki, qaldı bir yerdə olmaq söhbətinə, istəristəməz bir yerdə olursan çünki həmkarsan. Elə olurdu ki, mən onu çağırırdım, gecə deyirdim ki, studiyadayam, gəl, filan hissəni oxumalısan, yaxud məşqlər Fədayə xanımın evində olurdu. Bəzi düşüncəsiz insanlar var ki, bunu pis tərəfə yozur. Aramızda ər-arvad münasibəti olmayıb. Yaxın münasibətimizin olmağı o demək deyil ki, hökmən ər-arvad münasibəti yaşamalıyıq”.





Şahmalıoğlu həyat yoldaşının qısqanclıqlarından da danışıb: ”Mənim həyat yoldaşım qısqanc olub. İndi belə deyil, o, çox ağıllı qadındır. Artıq püxtələşib, hər şeyi başa düşür. Mən hər zaman ailəmin başında olmuşam, ailəmi, balalarımı hər şeydən üstün tutmuşam. Cavan vaxtı bir az qısqanclıqlar olub. Dünya dağılsa, mən ailəmi atmaram. Mənim həyat yoldaşım həm bibim nəvəsidir, həm də həyatda dostumdur”.

# Rəşad Dağlı apellyasiya şikayəti vermədi, “zona” köçürülür

***Qonşusunu öldürməkdə təqsirli bilinərək 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilmiş meyxanaçı Rəşad Dağlı (Əmirov) apellyasiya şikayəti vermək hüququndan istifadə etməyib.***

“Unikal” “qafqazinfo”ya istinadən xəbər verir ki, bu günə qədər nə Rəşad Dağlı və vəkili, nə prokuror, nə də zərərçəkmiş şəxsin hüquqi varisi apellyasiya şikayəti verib.

Meyxanaçıya ittiham olunduğu maddələrdə nəzərdə tutulan ən aşağı sanksiya həddində (CM-nin 120.1-ci maddəsi ilə 9 il, 228.4  6 ay) həbs cəzası təyin edilib. Görünür Rəşad Dağlı hökmdən razı qalıb, bu səbəbdən yenidən hakim qarşısına çıxmaq istəməyib.



Qanunvericiliyə görə, tərəflər bundan sonra apellyasiya şikayəti vermək istəsələr, müddətin bərpa edilməsi üçün əsaslı səbəblə məhkəməyə müraciət etməlidirlər.

Qeyd edək ki, dövlət ittihamçısı, vəkil və zərərçəkmiş tərəf hökm elan olunduğu, təqsirləndirilən şəxs isə hökmün surətini aldığı vaxtdan 20 gün müddətinə şikayət verə bilər. Bu müddət başa çatdıqdan sonra hökm qanuni qüvvəyə minir, təqsirləndirilən şəxs məhkum kimi cəzaçəkmə müəssisəsinə köçürülür.

Qeyd edək ki, Rəşad Dağlı Bakı Ağır Cinayətlər Məhkəməsinin 28 iyul tarixli hökmü ilə 9 il 6 ay azadlıqdan məhrum edilib.

# Səidə Sultanın toyu olacaq

***Müğənni Səidə Sultanın toyu olacaq.***



Bu barədə müğənni Kərim Abbasov sosial şəbəkə hesabında paylaşım edib. Belə ki, instaqram hesabının hekayə bölməsində Səidənin videosunu paylaşan müğənni bu sözləri yazıb:

“Səidəni 3 aydan sonra axır ki tapmışam. Toya hazırlıq ildırım sürəti ilə gedir. Bomba və qeyri-adi toy olacaq. Bildiyiniz əsl bakılı toyu”.

# "Tolik"ə qarşı dələduzluq



***Aparıcı, prodüser Tarix Əliyevə (Tolik) qarşı dələduzluq edilib.***

Bu barədə aparıcı sosial media hesabında yazıb. ”Bir qrafist var, dedilər ki, normal adamdır. 150 manat alıb məndən, qaytarmır. Hamıya da pul borcu var. Mənim pulumu yeyə bilməz, boğazında qalar. Onu mənimlə tanış edənləri də siləcəyəm ki, ətrafları da fırıldaqçılardır” deyə, o, bildirib.

# "Qız uşağı belə oynamaz" - Murad Arif



***”İnstaqram və TikTok-da çox bərbad, nataraz, əyiləbükülə, ayaqlarını əyri ataraq oynayan oğlanlar məşğələlər yaradır”.***

Bu sözləri müğənni-bəstəkar Murad Arif sosial şəbəkədə yazıb. Sənətçi sosial mediada gördüyü rəqs müəllimlərini və yaradılan kursları pisləyib: ”Görürəm ki, o məşqlərə yazılan onlarla balalarımız, qız uşaqları da daxil, beləcə, çirkin ”qədeşvari” rəqslər edir. Biri də demir ki, ”ay bala, milli rəqslər belə ayaqlarını əyri qoyaraq oynanılmaz”... Qız uşaqları heç belə oynamaz. İyrəncdir... Nə ”müəllimi” qanır, nə də valideyni”.

# "Məni xoşbəxt edən amil sevgidir" - Günay İbrahimli

***Müğənni Günay İbrahimli sosial şəbəkədə yeni fotolarını paylaşıb.***

Sənətçi qızımızı ətək və ağ rəngli köynəklə obyektiv qarşısına keçib. O, şərh bölümünə ”Məni xoşbəxt edən amillər: Sevgi, zövq aldığım işim və səyahət etməyim” sözlərini yazıb.





# Qərbi Azərbaycan İcması Nikol Paşinyana cavab verib

***Ermənistanın Baş naziri Nikol Paşinyan, hökumətin 2023-cü il avqustun 24-də keçirilmiş iclasında, Üçtərəfli Bəyanatın qaçqın və məcburi köçkünlərin qayıdışı ilə bağlı müddəasının guya Azərbaycan tərəfindən icra edilməməsi barədə iddia səsləndirmiş və Azərbaycanı ermənilərə qarşı etnik təmizləmə niyyətində olmaqda ittiham edib.***

Qərbi Azərbaycan İcması bununla bağlı bəyanat verib. Bəyanatda qeyd olunur: Əvvəla qeyd edək ki, öz ərazisindən və vaxtilə işğal etdiyi Azərbaycan ərazilərindən azərbaycanlıların hamısını qovmuş, bədnam mono-etnik siyasət yürüdən Ermənistanın Azərbaycanı etnik təmizləmədə ittiham etməsi ikrah hissi doğurur. Ermənistanın humanitar məsələlərdən və insan hüquqlarından danışmağa heç bir mənəvi haqqı yoxdur.

Konkret olaraq, qayıdış hüququ ilə bağlı qeyd edək ki, işğalçı Ermənistan ordusu 2020-ci ildə məğlub edilib Azərbaycan ərazilərindən çıxarılana qədər, Ermənistan 30 il ərzində azərbaycanlı məcburi köçkünlərin öz evlərinə qayıtmasına imkan verməmişdir. Bundan əlavə, Ermənistan öz ərazisindən qovduğu azərbaycanlıların qayıtmalarına hələ də imkan vermir. Həmçinin, Azərbaycanın Qarabağ iqtisadi rayonunun Xankəndi, Xocalı, Kərkicahan, Meşəli, Qaradağlı kimi yaşayış məskənlərindən qovulmuş azərbaycanlı məcburi köçkünlər hələ də öz evlərinə qayıda bilmirlər.

Azərbaycan isə 2020-ci il müharibəsindən dərhal sonra ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə təhlükəsiz şəkildə qayıtmasına imkan yaradıb və hazırda onları re-inteqrasiya etməyə çalışır. Bundan əlavə, Qarabağ bölgəsindən kənar Azərbaycan ərazilərində ermənilər tam hüquqlu Azərbaycan vətəndaşı kimi yaşamaqdadır.

Vurğulamaq istərdik ki, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmasına şərait yaratmaq Ermənistanın beynəlxalq hüquqdan və Üçtərəfli Bəyanatdan irəli gələn öhdəliyidir.

Biz Ermənistan hökumətindən beynəlxalq hüquqa zidd siyasətinə son verməyi, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə əməldə hörmət etməyi, Azərbaycan hökumətinin Qarabağ regionunda yaşayan erməniləri re-inteqrasiya etmək səylərini sabotaj etməyi dayandırmağı və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə öz evlərinə qayıtmasına şərait yaratmağı tələb edirik.

# Ermənipərəst nazirə Bakıda sərt cavab



***Azərbaycan Prezidenti İlham Əliyev ermənipərəst mövqeyinə görə Belçika XİN rəhbərini qəbul etməyəcək.***

Milli.Az xəbər verir ki, Belçikanın xarici işlər naziri Hadca Labib Ermənistanda səfərdə olarkən reallıqdan uzaq, regiondakı durumla uzlaşmayan ermənipərəst açıqlamalar verib.

Belçika XİN rəhbəri regiona səfəri çərçivəsində bu gün Azərbaycana gələcək.

Ölkəmizdə səfərdə olan xarici dövlətlərin XİN rəhbərləri, adətə, Prezident İlham Əliyev tərəfindən qəbul olunur, ikitərəfli münasibətlər, regionda və dünyada aktual məsələlər ətrafında fikir mübadiləsi aparılır.

Ermənipərəst mövqeyinə və Ermənistanda səfərdə olarkən səsləndirdiyi əsassız iddialara görə Prezident İlham Əliyev Belçika XİN rəhbərini qəbul etməyəcək.

# Zakir Qaralova məxsus şirkətin adı yeni qalmaqalda

## "Akkord"a qarşı məhkəmə iddialarının ardı-arası kəsilmir



***“Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası” ASC barəsində inzibati protokol tərtib olunub.***

Şirkət İnzibati Xətalar Məcəlləsinin 430.4-cü (Avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmaması) maddəsi ilə ittiham olunur.

İş baxılması üçün Nərimanov Rayon Məhkəməsinə göndərilib. 430.4-cü maddəyə əsasən, vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin 10 faizindən 20 faizinədək məbləğdə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin 20 faizindən 30 faizinədək məbləğdə cərimə edilir.

Xatırladaq ki, adıçəkilən şirkətin qeyri-rəsmi sahibi olduğu bildirilən sabiq Baş prokuror Zakir Qaralovun bu postu itirməsindən sonra ”Akkor”a qarşı məhkəmə iddiaları və cərimələrin intensivləşdiyi hiss edilir.

Məsələn bir neçə ay öncə Azərbaycan Mərkəzi Bankı “Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası” ASC barəsində məhkəməyə müraciət etmişdi. Ölkənin baş bankı Z.Qaralovun himayəsindəki şirkət barədə İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə cərimə protokolu tərtib edib, Nərimanov Rayon Məhkəməsinə göndərmişdi.

Bu maddə İXM-də valyuta tənzimi qaydalarının pozulmasına görədir. Belə ki, avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin 20 faizindən 30 faizinədək məbləğdə cərimələnir. Sahibkar müqavilə bağlayaraq, xarici şirkətə ödəniş edib, sövdələşdiyi vaxt yox, 2 il müddət çərçivəsində malı həmin şirkətdən ya almalı, ya da ödədiyi maliyyə vəsaitini geri qaytarmalıdır. Bunlara əməl etmək mümkün olmadıqda isə sahibkarlara Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən, müqavilə məbləğinin 20-30 faizi civarında cərimə protokolu tərtib olunur.

”Akkord”la bağlı məhkəmə iddialarının, cərimələrinin adiləşməsi sabiq Baş prokuror Zakir Qaralovun bu vəzifədən uzaqlaşdırılması ilə izah olunur. Belə ki, Qaralov həmin vəzifədə ikən ”Akkord”la bağlı oxşar hallar nadir zamanlarda yaşanardı. Bir sözlə, bu ASC-nin fəaiyyətindəki nöqsanlarla bağlı hər hansı dövlət qurumunun cərimə yazması, məhkəməyə müraciət etməsi az təsadüf olunan hadisə idi. İndi isə bu xeyli dərəcədə intensivləşib. Görünən odur ki, vəzifədə olarkən əlindəki ciddi təsir rıçaqları vasitəsilə himayəsindəki korporasiyanın toxunulmazlığını təmin edən Qaralov indi bunda çətinlik çəkir.

Xatırladaq ki, Zakir müəllimin Baş prokuror postundan yola salınmasının ardınca ”Akkord”un ciddi sıxıntılar yaşamağa başladığı vurğulanırdı. İddia edilirdi ki, uzun müddət Azərbaycanda ən böyük tikinti layihələrinin icrasını həyata keçirərək, dövlət büdcəsindən milyardlarla manat pay alan, paytaxtda və iri şəhərlərdə çoxlu sayda yaşayış kompleksləri, qeyri-yaşayış binaları tikib sataraq külli miqdarda qazanc götürən, ancaq gördüyü işlərin bir çoxu keyfiyyətsiz çıxdığı üçün bazardakı mövqelərini itirən bu şirkət qazandığı tenderlərin icrasına cəlb etdiyi subpodratçılarla problemlər yaşayır, onlara gördükləri işlərin müqabilində ödəniş etməkdə çətinlik çəkir.

O da qeyd olunurdu ki, “Akkord” rəhbərliyi ilə ən ciddi qalmaqal Türkiyənin HDS şirkəti arasında yaranıb. Sitat: ““Akkord” HDS şirkətindən tikinti materialları sifariş edib və Türkiyə şirkəti də ilkin materialları göndərib. Ancaq göndərilən malın dəyəri - 200 min avro ödənilmədiyindən, HDS materialların ardının göndərilməsini dayandırıb” Qaynaq: Azpolitika.info).

Məlumata görə, ”Akkord”un özündə də ciddi problemlər yaşanır. Belə ki, şirkət əməkdaşları bəzən uzun müddət əməkhaqqı ala bilmir. Lakin bütün bunlara baxmayaraq, şirkət rəhbərliyinin heç nədən çəkinmədiyi, hətta hər kəsə hədə-qorxu gəldiyi, şikayətləri bu yolla ört-basdır eləməyə çalışdığı vurğulanırdı.

Bir sözlə, sözügedən korporasiya üçün Zakir Qaralovun vəzifədən göndərilməsinin ciddi problemlər yaratdığı əksər media orqanları tərəfindən son vaxtlar davamlı şəkildə dilə gətirilir. Lakin “Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası” ASC istər bu iddialar, istərsə də onun qeyri-rəsmi şəkildə sabiq Baş prokurora bağlılığı barədə deyilənlərə indiyədək münasibət bildirməyib. Korporasiya öz adı ətrafında qalmaqallı xəbərlərə bir qayda olaraq səssiz qalmaqla ”cavab” verir ki, bu da cəmiyyətdə təəccüb doğurur.

Xatırladaq ki, hazırda 67 yaşı olan Zakir Qaralov 2020-ci ilin mayında Baş prokuror vəzifəsindən yola salınıb. O, 2000-ci ildən bu yana 20 il müddətində həmin postu tutmuşdu.

***Sənan Mirzə***

# Sülhdən yayınan Ermənistanı ağır nəticələr gözləyir

***Ermənistanın baş naziri Nikol Paşinyan nazirlər kabinetinin dünənki iclasında deyib ki, Ermənistan Azərbaycanla sülh müqaviləsinin yeni təkliflərini Azərbaycan tərəfinə çatdırıb. ”Mən Ermənistan Respublikasının sülh gündəliyinə sadiqliyini vurğulamaq istəyirəm. Sizə bildirməliyəm ki, bəli, biz Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin yeni təkliflərini Azərbaycan tərəfinə göndərmişik”, - deyə baş nazir qeyd edib.***

Paşinyan sülh müqaviləsinin yeni təklifləri ilə bağlı digər təfərrüatları açıqlamayıb. Bu barədə fikirlərini bizimlə bölüşən politoloq Elxan Şahinoğlu bildirib ki, bu “təqdimatlar” heç nəyi həll etməyəcək. Çünki Paşinyan bir tərəfdən Qarabağ daxil Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edərkən, digər tərəfdən ərazi bütövlüyünü tanıdığı ölkənin daxili işlərinə qarışır: “Paşinyan həmin iclasda onu da deyib ki, guya Bakı Xankəndi ilə dialoqdan yayınır. “Ermənistan Dağlıq Qarabağ sakinlərinin hüquq və təhlükəsizlik məsələlərinin beynəlxalq mexanizmlər çərçivəsində müzakirə edilməsini dəstəkləyir” deyən Paşinyan bununla Bakı ilə Xankəndi arasında birbaşa dialoqun əleyhdarı kimi çıxış edir. Paşinyan həqiqətən sülh istəyirsə, Qarabağ separatçılarını inandırmalıydı ki, onlar təmsilçilərini Bakıya, Yevlaxa və ya Bərdəyə göndərsinlər, Ağdam yolunun istifadəsi müzakirə edilsin. Azərbaycan heç müharibədən əvvəl beynəlxalq vasitəçilərin iştirakıyla erməni separatçıları ilə dialoqa getmirdi, müharibədən sonra bu heç mümkün deyil. Ona görə də Paşinyanın “beynəlxalq mexanizmlər çərçivəsində müzakirə” təklifinin perspektivi yoxdur. Paşinyan bu tələbindən əl çəkməzsə Azərbaycanla Ermənistan arasındakı danışıqlarda irəliləyiş olmayacaq”.

Milli Məclisin deputatı millət vəkili Naqif Həmzəyev isə hesab edir ki, Ermənistan regionda yaranmış yeni reallıqları dərk etmək istəmir. Onun qənaətincə, Ermənistanın havadarları da Azərbaycanla normallaşmanı istəmirlər, yaxud onlar üçün əlverişli sülhün olması daha maraqlıdır. Deputat bildirib ki, onlar güclü Azərbaycan fonunda masada zəif Ermənistanı görmək istəmirlər: ”Ermənistanın havadarları erməniləri açıq və birbaşa formada silahlandıra bilməsələr də, bunu başqa yollarla, məsələn, Hindistan vasitəsi ilə reallaşdırırlar. Nəticə etibarilə dağılmış, məhv olmuş erməni ordusunu ən azından ayağa qaldırmaq niyyəti güdürlər. Ermənistan da anlayır ki, danışıq masasında zəif irəvanın hansısa şərtlər irəli sürməsi, nələrsə tələb etməsi qeyri-mümkündür. O baxımdan ermənilər də silahlanmaya gedir, təxribatlara meyl edir, müharibəni alternativ variant kimi məqbul sayırlar. Təbii ki, bütün bunları həyata keçirərkən erməni lobbisindən də ciddi dəstək umurlar”. Onun sözlərinə görə, BMT-nin TŞ-da erməni xəyallarının puç olması, əliboş qayıtmaları müəyyən mənada erməni lobbisini məyus edib. Lakin yenə də alternativ yollar axtarır, Azərbaycana təsir mexanizmləri üzərində fikirləşirlər. Ermənistanın havadarları da irəvanı ruhdan düşməməyə çağırır və Azərbaycana təzyiqlərini artıra bilmək üçün müxtəlif yollara baş vururlar. Müsahibimiz onu da diqqətə çatdırıb ki, Azərbaycan sülh yolunu seçsə də, müharibədən dərhal sonra ordusunun müasir tələblərə cavab verəcək şəkildə qurulması prosesinə başlayıb: “Hazırda Türkiyənin ordu sisteminə uyğun olaraq, komanda tipli hərbi birləşmələr yaradılmaqdadır. Daha çox peşəkar hərbçilərdən ibarət bir Ordu formalaşır. Ordumuzun inventarı daha müasir, dördüncü nəsil silah-sursat, hərbi texnikalarla təchiz edilib. Azərbaycan Ordusu 3 il əvvəlki vəziyyətindən qat-qat daha güclüdür. Ermənistan illərlə silahlanmaya diqqət artırsa da, onun gücü Azərbaycan Ordusunun onda biri qədər ola bilməz. Ermənistanın Azərbaycanla hərbi dillə, təhdidlə danışması absurddur. Ermənistan təxribatlara əl ataraq regionda fərqli görüntü yaratmağa, özlərini ”məzlum”, ”əzilmiş”, ”yazıq” obrazında nümayiş etdirmək istəyir”. Deputat qeyd edib ki, Azərbaycan bütün erməni tələlərinin, hiylələrinin qarşısını almaq gücündədir. Bütün cəbhələrdə - həm hərbi, həm diplomatiya, həm də informasiya sahəsində bütün təxribatlara cavab veriləcək. N.Həmzəyevin sözlərinə görə, Ermənistan hərbi təxribatlarla ölkəmiz üzərində hansısa təzyiq mexanizmi qurmağa cəhd göstərəcəksə, danışıqlar prosesini pozmağa çalışacaqsa, bu, irəvanın daha rəzil və acınacaqlı vəziyyətə düşməsi ilə nəticələnəcək: “Ermənistan 3 il ərzində etdiyi səhvləri təkrarlamamalı, havadarlarının fitnəsinə getməməli, erməni lobbisinə arxalanmamalıdır. Anlamalıdır ki, erməni xalqı Cənubi Qafqaz regionunda yaşamalı, Azərbaycan və Türkiyə ilə normal əməkdaşlıq etməlidir. Əks təqdirdə kağız üzərində olan müstəqilliyini tamamilə itirmək təhlükəsi ilə üzüzə qalacaq”.



Politoloq Məhəmməd Əsədullazadə isə deyir ki, Paşinyanın sülh danışıqları barədə dedikləri ilə ölkəsinin davranışları uyğun gəlmir. Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında danışıqlar faktiki dayanıb: “Bu danışıqların dayanması üçün provokasiyaların arxasında Rusiya və Fransa durur. Rusiya Qarabağın reinteqrasiya prosesinə mane oldu. Fransa da Ermənistana bir neçə silah növü verməklə, sülh danışıqlarından çəkindirdi. Ermənistanla yeni müharibə riski var. Növbəti aylarda Ermənistanın hərbi təxribatlara əl atması mümkün ola bilər. Ermənistan hərbi təxribatlara getməklə Azərbaycana yeni təzyiqlərin formalaşmasına çalışacaq. Birinci, Laçın yolunu əvvəlki vəziyyətinə qaytarmaq. ikinci, Qarabağa Kosovo modeli tətbiq etmək. Ermənistan Baş naziri Nikol Paşinyanın əvvəlki mövqeyindən geri çəkilərək daha da radikal mövqeyə keçməsi görünür. Ona görə də Ermənistanı sülhə məcbur etmək üçün mütləq şəkildə təzyiqlər həyata keçirilməlidir. Hətta Qafan aeroportunu tam nəzarəti götürməklə, Xocalı aeroportuna da eyni ssenarini tətbiq etmək lazımdır”.

***Murad İbrahimli***

# “Azərbaycan hava məkanını təxribatlardan qorumalıdır” - Şərh



***“Qarabağdakı ermənilər 2020 ci il məğlubiyyətindən və Ukraynada gedən müharibədə dron-anti-dron toqquşmasından nəticələr çıxarıb, radioelektron mübarizə (REM) vasitələrini gücləndirirlər”. Bunu hərbi icmalçı, ehtiyatda olan polkovnik-leytenant Nazim Bayram Qarabağ separatçılarının ölkəmizin hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı radiomaneələr tətbiq etməsindən danışarkən deyib.***

“Azərbaycanın Müdafiə Nazirliyi və XİN buna rəsmi münasibət bildirib. Azərbaycan Hava Yollarının və xarici aviaşirkətlərin təyyarələri Qarabağ səmasından keçərkən erməni silahlı qruplaşmasının işlətdiyi REM vasitələrin təsirinə məruz qalır. Hərbi təyyarələrdə REM-ə qarşı xüsusi əks avadanlıq olur. Mülki təyyalərdə də belə avadanlıq olmur. Mülki təyyarə qırıcı kimi sürətli manevrlə REM təsir zonasını tərk edə bilmir. Erməni REM vasitələrinin fəaliyyəti nəticəsində Azərbaycanın hava məkanından keçən avialaynerlərdə ştatdankənar situasiyalar və qəza vəziyyətləri yarana bilər”. Hərbi icmalçının sözlərinə görə, atəşkəsin pozulması və “blokada” haqqında erməni mənbələrin son vaxtlar yaydıqları məlumatlarda onların “rabitə və internet infrastrukturunun” hədəfə alınması barədə xəbərlərə tez-tez rast gəlinir: “Bunlardan anlaşılır ki, Azərbaycan hava əməliyyatı üçün ilkin hazırlıq tədbirləri görür. Azərbaycan öz hava məkanını əlində olan bütün vasitələrlə terrorçuların təxribatlarından qorumalıdır.

# Qrossidən Azərbaycanla bağlı vacib açıqlama

***Azərbaycan xarici işlər nazirinin müavini Fariz Rzayev Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktoru Rafael Qrossi ilə görüşüb. Bu barədə AEBA-nın Baş direktoru ”Twitter”də bildirib.***

”AEBA ilə əməkdaşlıq və nüvə elmi ilə Azərbaycan pambıq istehsalını nəzərəçarpacaq dərəcədə üç dəfə artırıb. Qoşulmama Hərəkatının qlobal hədəflərə çatmasında ”Ümid Şüaları” kimi təşəbbüsləri ilə bu hərəkata sədrlik edən Azərbaycanla işləməyə davam edəcəyik. Dəstəyinə görə Azərbaycan XİN-i təşəkkür edirik”, - o qeyd edib.

# Danimarkalı diplomat beşinci dəfə Türkiyə XİN-ə çağırıldı

***Danimarkanın müvəqqəti işlər vəkili yenidən Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb.***

”Unikal” xarici mətbuata istinadən xəbər verir ki, danimarkalı diplomata ölkəsində Qurani-Kərimin təhqir olunmasına görə növbəti dəfə etiraz bildirilib.

Qeyd edək ki, bu, həftə ərzində Danimarka təmsilçisinin çağırılması ilə bağlı beşinci haldır. Buna səbəb Kopenhagendə, o cümlədən Türkiyə diplomatik missiyasının binası yaxınlığında Qurani-Kərimin təhqir olunması istiqamətində davam edən aksiyalardır. Bundan əvvəl danimarkalı diplomat avqustun 18-də, 21-də, 22-də və 23-də Xarici İşlər Nazirliyinə çağırılıb.



# İlham Əliyev Volodimir Zelenskiyə məktub göndərdi



***Prezident İlham Əliyev Ukraynanın Prezidenti Volodimir Zelenskiyə təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli cənab Prezident, Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Ukrayna arasında münasibətlərin hazırkı yüksək səviyyəsi xalqlarımızın tarixən təşəkkül tapmış sıx dostluq və qarşılıqlı hörmət ənənələrindən irəli gəlir. Bu iradədən qaynaqlanan və möhkəm təməllər üzərində qurulan dövlətlərarası əlaqələrimizin birgə səylərimizlə dinamik inkişaf edərək yeni mərhələyə yüksəlməsi məmnunluq doğurur. Azərbaycan-Ukrayna əlaqələrinin keçən ilin yanvarında Ukraynaya səfərim zamanı imzaladığımız Birgə Bəyannamədə öz əksini tapmış məram və məqsədlərə uyğun olaraq bundan sonra da inkişaf edəcəyinə inanıram.

Cari ilin iyununda Kişineuda Sizinlə görüşümüzü, Azərbaycan-Ukrayna ikitərəfli əlaqələri ətrafında apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

Azərbaycan BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə daim sadiq qalaraq bütün dövlətlərin, o cümlədən Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə hörmət edir. Biz Ukrayna xalqına humanitar yardım məsələlərini daim diqqətdə saxlayır, bundan sonra da lazımi yardım göstərməyə hazır olduğumuzu bildiririk.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin genişlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın möhkəmlənməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Ukrayna xalqına sülh və əmin-amanlıq diləyirəm".

# Müdafiə Nazirliyinin üç polkovniki məhkəmə qarşısına çıxarılır

***Müdafiə Nazirliyinin mənimsəməyə görə həbs edilən sabiq vəzifəli şəxslərinin cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***

APA xəbər verir ki, cinayət işi materialları məhkəməyə göndərilib. Cinayət işi Bakı Hərbi Məhkəməsində baxılacaq. Təqsirləndirilən şəxslər - Fikrət Mirzəyev, Mahir Şirvanov və Məlikməmməd Qurbanovun cinayət işləri ayrı-ayrılıqda icraata verilib.

Qeyd edək ki, iki polkovnikə - Fikrət Mirzəyevə və Məlikməmməd Qurbanova qarşı Cinayət Məcəlləsinin 179.4-cü



(xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham irəli sürülüb. Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi polkovnik Mahir Şirvanova isə 179.4, 341.2.1 və digər maddələr ilə ittiham irəli sürülüb.

Polkovnik Fikrət Mirzəyev nazirliyin Mənzil İstismar İdarəsinin, polkovnik Mahir Şirvanov Satınalmalar və Təchizat İdarəsinin, polkovnik Məlikməmməd Qurbanov isə Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi olub. Hər üç polkovnik 2022-ci ilin əvvəlində həbs ediliblər.

Polkovnik Fikrət Mirzəyev 2020-ci il iyun ayında MN-dəki vəzifəsindən çıxarılıb. M.Qurbanov 27.08.2019-cu il tarixində xidmət keçmənin son yaş həddi ilə əlaqədar olaraq ehtiyata buraxılıb. M.Şirvanov polkovnik M.Qurbanovdan əvvəl bu vəzifədə çalışıb.

# Laçın həqiqətləri Türkiyə mediasında

***Türkiyənin //www.manisameydangazetesi.com.tr xəbər portalında "Laçın, ay Laçın" sərlövhəli məqalə yayımlanıb.***

Türkiyə-Azərbaycan Dərnəklər Dostluğu Federasiyasının Dil Tarixi bölməsinin rəhbəri, yazar Seyfettin Ayakyayın qələmə aldığı məqalədə Azərbaycanın Laçın yolu ilə bağlı Ermənistanın dünya ictimaiyyətini aldatmağa cəhd göstərməsindən bəhs edilib.

Türkiyə Xarici İşlər Nazirliyinin bu məsələ ətrafında yaradılmış süni hay-küylə bağlı Azərbaycanın mövqeyini tam dəstəklədiyi diqqətə çatdırılıb. Müəllif bildirib ki, həmin bəyanatda Laçın yolunda Azərbaycana qarşı tənqidlərin əsassız olduğu, Azərbaycan tərəfinin Laçın vasitəsilə tibbi təxliyənin təmin edilməsi və irrasional yüklərin daşınması üçün digər münasib marşrutların ayrılması üçün səy göstərdiyinin qeyd edildiyi vurğulanıb. Türkiyə XİNnin Ermənistanı təcavüzkar addımlardan çəkinməyə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımağa, Qarabağda yaşamaq istəyən erməni xalqının ehtiyaclarını ödəmək üçün həm Ağdam-Xankəndi, həm də digər alternativ yollardan istifadəyə, Azərbaycanın erməni əhalisi ilə reinteqrasiya səylərini dəstəkləməyə çağırdığı bildirilib.

Nəzərə çatdırılıb ki, Laçın yolu ilə bağlı Ermənistanın təxribatçı yalanına cavab olaraq Azərbaycan Xarici İşlər Nazirliyi rəsmi İrəvanı "BMT Təhlükəsizlik Şurasını manipulyasiya kampaniyası vasitəsinə çevirmək cəhdində" ittiham edib.

Müəllif bildirib ki, Azərbaycan əleyhdarlarının qərəzsizliyinə, ədalət hissinə artıq heç kim inanmır. O, həmin qüvvələrə Ermənistanın 30 illik işğal dövründə Azərbaycan torpaqlarında törətdikləri hərbi cinayətləri, o cümlədən Zori Balayanın azərbaycanlı qız uşağının diri ikən dərisinin soyulması barədə dəhşətli etirafını xatırladıb. "...bu gün Qarabağda azərbaycanlıların "kütləvi qəbiristanlıqları"nın üstü açılıb. Ermənilər hələ də narkotiklərin daşınması üçün ictimai yaşayış yerlərində gizli şəkildə minalar qoyurlar... Soruşmaq lazımdır: 30 il harada gizlənmisiniz?".

Laçının qədim Azərbaycan torpağı olduğunu vurğulayan



müəllif 10 il sədri olduğu Manisa Azərbaycan Kültür Dərnəyi tərəfindən illər öncə təşkil olunan konserti xatırladıb. 500 nəfərin qatıldığı həmin konsertdə Azərbaycanın məşhur opera ifaçısı Lütfiyar İmanovun "Ay Laçın" mahnısını oxuyarkən konsertin "ağlaşma yerinə" çevrildiyini qeyd edib. "Laçın ifası 1914 - 1920-ci illərdə vətənlərindən, İrəvandan, Gümrüdən gəlmiş ailələrin ah-naləsi ilə inildəyirdi...".

Məqalənin sonunda xəbər verilib ki, TADDEF-in təşkilatçılığı ilə Türkiyənin müxtəlif şəhərlərindən olan 41 jurnalist Azərbaycan jurnalistləri ilə birlikdə mətbuat konfransları keçirəcək və Qarabağ bölgəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdıracaq.

# Hərbçilərimiz Gürcüstanda beynəlxalq təlimdə iştirak edirlər

***Azərbaycan Ordusunun hərbi qulluqçuları Gürcüstanın Tbilisi şəhərində "Agile Spirit 2023" çoxmillətli hərbi təlimində iştirak edirlər.***



"Unikal" xəbər verir ki, bu haqda Müdafiə Nazirliyi məlumat yayıb. Komanda-qərargah təlimində 21 ölkənin nümayəndələri iştirak edirlər.

Beynəlxalq təlimdə əsas diqqət qarşılıqlı əlaqədə fəaliyyətlər zamanı döyüş uzlaşmasının təmin edilməsi, təcrübə mübadiləsi və peşəkarlığın artırılması, eləcə də şəxsi heyətin bilik və bacarıqlarının daha da təkmilləşdirilməsinə yönəldilib.

Qeyd edək ki, çoxmillətli təlim Gürcüstanda 11-ci dəfədir təşkil edilir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Bayden və Ərdoğanın müşavirləri müzakirə apardı

***Türkiyə Prezidentinin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə baş müşaviri Akif Çağatay Kılıç ABŞ Prezidentinin milli təhlükəsizlik müşaviri Ceyk Sallivan ilə telefon danışığı aparıb.***

"Unikal" xəbər verir ki, bu barədə TRT kanalı məlumat yayıb.

Telefon danışığı zamanı qlobal məsələlər, Ukrayna, İraq və Kipr kimi bir çox regional məsələlər müzakirə edilib və məsələlər haqqında fikir mübadiləsi aparılıb.

# FAO-nun Azərbaycandakı Ofisinin yeni rəhbəri ADAU-ya səfər etdi

***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin yeni təyin olunan rəhbəri Muhammad Nasar Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət Aqrar Universitetinə (ADAU) səfər edib.***

"Unikal" xəbər verir ki, qonaqlarla görüşən Universitetin rektor vəzifəsini icra edən Zəfər Qurbanov ADAU-nun maddi-texniki bazası, beynəlxalq əlaqələri və ikili diplom proqramları haqqında məlumat verib. O bildirib ki, bu il universitetin 100-dən çox tələbəsi Erasmus+ proqramı çərçivəsində Avropanın müxtəlif ölkələrinə təhsil almaq üçün göndəriliblər. FAO ilə birgə həyata keçirilən layihələr barədə məlumat verən Z. Qurbanov mövcud əməkdaşlığın daha sıx şəkildə davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Muhammad Nasar Hayat Aqrar Universitetdə



olmaqdan məmnun olduğunu bildirib. O deyib ki, bu ali təhsil ocağına ilk səfəri olmasına baxmayaraq təəssüratları yüksək səviyyədədir.

Görüş çərçivəsində əməkdaşlıq perspektivləri, mütəxəssis mübadiləsi və birgə layihələrin həyata keçirilməsi məsələləri də müzakirə edilib.

Sonda qonaqlar Universitetin müasir laboratoriyalarına, Tələbə parkına, Tələbə evlərinə və heyvandarlıq təsərrüfatlarına baş çəkiblər.

# Nazirlər Zəngəzur dəhlizini müzakirə etdi

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Belçikanın xarici işlər naziri Hadca Labibi qəbul edib.**

*Nazirlər arasında geniş tərkibli görüş keçirilib. Azərbaycanla Belçika arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, regional vəziyyət müzakirə edilib.*

Sonra nazirlər brifinq keçirildi və nazirlər mövqelərini ifadə etdilər. Naziri Ceyhun Bayramov: "Biz xanım nazirlə həm təkbətək, həm də geniş tərkibli görüş zamanı iki ölkə, Azərbaycan və Avropa İttifaqı arasında olan münasibətlər və layihələr, eyni zamanda regional məsələlər ətrafında fikir mübadiləsi apardıq. Çoxtərəfli platformalarda ölkələrimiz, o cümlədən BMT və onun təsisatları, ATƏT, Aİ, AŞ və sair təşkilatlar çərçivəsində də faydalı əməkdaşlıq həyata keçirirlər.

Bugünkü görüşümüz əsnasında lığın önəmi xüsusi qeyd olundu. Şərq-Qərb Orta Dəhlizi və onun artan rolu barədə danışarkən, yeni vəziyyətin yaratdığı imkan və belə olan təqdirdə Zəngəzur dəhlizinin də Şərq-Qərb Orta Dəhlizin yeni qolu kimi istifadəsinin rolu xanım nazirin diqqətinə çatdırıldı.

Bugünkü görüş zamanı regional məsələlər ətrafında geniş müzakirələr aparıldı. Tərəfimizdən post-münaqişə dövründə bölgədə yaranmış yeni imkanlar barədə Azərbaycan dövlətinin baxışları xanım nazirin diqqətinə çatdırıldı. Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin bağlanması məsələsində atılan addımlarının məhz Azərbaycan liderinin təşəbbüsü olması, 2022-ci ildə sülh müqaviləsinin özəyini təşkil edən 5 baza prinsipinin məhz Azərbaycan tərəfindən təqdim edilməsi, 2022-ci ilin oktyabrında danışıqların birinci raundunda məhz Azərbaycan tərəfindən sülh Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiyası prosesi barədə də xanım nazirə məlumat verdim. Qeyd etdim ki, 30 il ərzində iki qonşu arasında delimitasiya prosesinə başlamaq imkanı olmayıb. Bunun da səbəbi Ermənistanın işğalçı siyasəti və Azərbaycan ərazisinin 400 km-lik sərhədinin işğal altında qalması idi. Vətən müharibəsindən sonra delimitasiya prosesinə start vermək şansı yaranıb. Azərbaycan tərəfinin təşəbbüsü ilə 2022-ci ildə iki dövlət tərəfindən komissiya yaradılıb və bir sıra görüşlər keçirilib. Azərbaycan tərəfi prosesin sürətlənməsinin və aydınlaşmasının tərəfdarıdır. Sözsüz ki, beynəlxalq hüququn norma və prinsiplərini qorumaq şərti ilə…".

Bu barədə Belçika xarici işlər naziri Hadja Lahbib Bakıda azərbaycanlı həmkarı Ceyhun Bayramovla birgə keçirdiyi mətbuat konfransında fikirlərini bölüşüb:



ikitərəfli münasibətlər kontekstində biz ikitərəfli iqtisadi əlaqələrimiz barədə fikir mübadiləsi apardıq. Azərbaycanda 18 Belçika şirkəti fəaliyyət göstərir. 2022-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi təxminən 80 milyon ABŞ dolları olub. Bu il bəlli artıma baxmayaraq, hesab edirik ki, bu dövriyyə ölkələrimiz arasındakı əlaqəni tam əks etdirmir.

Belçikadan Azərbaycana qoyulan investisiya 120 milyon, Azərbaycandan Belçikaya qoyulan investisiya isə 250 milyon ABŞ dolları həcmindədir. Biz bugünkü müzakirələrimiz çərçivəsində Azərbaycanla Aİ arasında bir sıra sahələrdə strateji əməkdaşlıq barədə müzakirələr apardıq. Burada, təbii ki, Azərbaycanın son illər ərzində Aİ-nin və üzv ölkələrin enerji təhlükəsizliyində artan rolu, yeni icra olunan layihələr ətrafında fikir mübadiləsi oldu.

Görüşdə Cənubi Qafqazın və Azərbaycanın Avropa ölkələri ilə, həmçinin Mərkəzi Asiya və üzü Şərqə doğru iri ölkələrlə nəqliyyat kommunikasiyalarında artan rolu və Azərbaycanla Aİ arasında aparılan əməkdaş- müqaviləsinin ilkin layihəsinin hazırlanması və təqdim olunması diqqətə çatdırıldı. Vacib məqam ondan ibarətdir ki, işğal faktına son qoyulandan sonra beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə ölkələrin qarşılıqlı olaraq ərazi bütövlüyünə və suverenliyinə hörməti yalnız sözdə və bəyanatlarda deyil, o cümlədən real danışıqlarda əksini tapması prosesin irəliləməsi üçün önəm kəsb edir. Azərbaycan tərəfi bu istiqamətdə bütün zəruri addımları atır.

Təbii ki, biz post-münaqişə mövzusunda danışarkən digər istiqamətlərdə aparılan layihələr və danışıqlar barədə də fikir mübadiləsi apardıq. Üçtərəfli bəyanatda nəzərdə tutulduğu kimi, Ermənistanın bir sıra öhdəlikləri diqqətə çatdırıldı. Hansı ki bunlardan nəqliyyat-kommunikasiyaların açılması, Azərbaycanla Naxçıvan arasında kommunikasiyaların açılması əsas məqamlardan biridir. Bu istiqamətdə iki il yarım gedən danışıqlarda bəlli bir irəliləyiş olsa da, Ermənistanın qeyri-konstruktik mövqeyi tam nəticə əldə etməyə imkan vermir.

"Göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkür edirəm. Son 8 ildir ki Belçika XİN rəhbəri Bakıya gəlməyib. Mən bu fürsətdən istifadə etmək istədim. Ceyhun Bayramovla görüşdə ikitərəfli münasibətləri müzakirə etdik. Biz istəyirik bu münasibətlər dərinləşsin.

Azərbaycan regionda sülhün və sabitliyin təmin olunması üçün kifayət qədər səy göstərir. hazırda Azərbaycan və Ermənistan arasında sülhə nail olmaq, eləcə də regionda dayanıqlı sülhü təmin etmək üçün tarixi imkan yaranıb. Əlbəttə ki, sülhə nail olmaq məsələsində Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmalıdır. Həm Ermənistanın, həm də Azərbaycanın liderləri də bildiriblər ki, iki ölkənin ərazi bütövlüyü və suverenliyi nəzərə alınmalıdır. Biz bunu ancaq dəstəkləyə bilərik. Görüşdə tikinti, səhiyyə sahəsində əməkdaşlığa toxunduq. Biz istəyirik Belçika şirkətləri burada yaxşı təmsil olunsun. Bu görüş müxtəlif məslər barədə fikir mübadiləsi üçün fürsət oldu".

***İnformasiya şöbəsi***



## Ombudsman nümayəndələri erməni diversanta baş çəkdi

***Ombudsman Səbinə Əliyevanın tapşırığına əsasən, Milli Preventiv Qrupun (MPQ) üzvləri Azərbaycan sərhədini pozan erməni diversant Qaqik Voskanyana baş çəkib.***

Bu barədə "Unikal"a Ombudsman Aparatından məlumat verilib.

Bildirilib ki, MPQ-nin ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftarın, müəssisədəki saxlanma şəraitinin və təqsirləndirilən şəxslərin hüquqlarının təmini vəziyyətinin monitorinqi olub.

Başçəkmə zamanı bu il avqustun 16-da terror-təxribat törətmək məqsədilə Azərbaycan-Ermənistan dövlət sərhədini qanunsuz olaraq keçən Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat-diversiya qrupunun üzvü Qaqik Voskanyan da qəbul edilib. Həmin təqsirləndirilən şəxsin saxlanma şəraiti, onunla rəftar, tibbi xidmətə çatımlılıq və Milli Preventiv Mexanizm mandatına uyğun digər məsələlər araşdırılıb, beynəlxalq və milli qanunvericiliyə əsasən hüquqlarının təmin edilməsi vəziyyəti öyrənilib. Adıçəkilən şəxs saxlanma şəraitindən, onunla rəftardan və tibbi xidmətdən razılığını bildirib.

Konfidensial qaydada söhbət aparılan şəxsə hüquqları, Ombudsmanın səlahiyyətləri barədə məlumat verilib, öz dilində insan hüquqları sahəsindəki beynəlxalq aktlar təqdim edilib.

## Xankəndidə separatçılığı təbliğ edən ermənıəsilli şəxs axtarışa verildi

***Xankəndidə separatçılığı təbliğ edən erməniəsilli şəxs axtarışa verilib.***

Bu barədə "Unikal"a Azərbaycanın Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, 1970-ci ildə Bakı şəhərində anadan olmuş, hazırda Azərbaycan Respublikasının Xankəndi şəhərində yaşayan Matevosyan Karen Eduardi avqustun 21-də "Telegram" və digər internet informasiya resurslarında rus dilində yayımlanmış videomüraciəti üzrə Baş Prokurorluğun İstintaq idarəsində cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

İş üzrə K.Matevosyan Cinayət Məcəlləsinin 279.1 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qruplar yaratma) və 283.1-ci (milli nifrət və düşmənçiliyin salınması) maddələrilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq axtarışa verilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda ibtidai istintaq davam etdirilir, nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcəkdir.

## Priqojin həyatda ciddi səhvlərə yol verdi - Putin



***Rusiya Prezidenti Vladimir Putin Tver vilayətində baş verən təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya mediası məlumat yayıb. Qeyd olunub ki, Putin Yevgeni Priqojin haqqında ayrıca danışıb. "Priqojin çətin taleyi olan bir insan idi və həyatda ciddi səhvlərə yol verdi. O, istedadlı insan, iş adamı idi", - deyə Vladimir Putin bildirib.

Rusiya lideri əlavə edib ki, təhqiqat komitəsinin rəhbəri təyyarə qəzası ilə bağlı araşdırmaya başlayıb.

# "Azərbaycanın beynəlxalq hüququn verdiyi legitim hüquqları var"

## Vüqar İskəndərov: "Hazırkı durumda Azərbaycan tərəfi məsələni sülh yolu ilə, daha çox diplomatik müstəvidə həyata keçirməyə çalışır"

***Milli Məclisin deputatı Vüqar İskəndərov "Unikal"a müsahibə verib. O, son vaxtlar Ermənistan silahlı qüvvələri tərəfindən törədilən təxribatların artmasından, Azərbaycan Ordusunun anti-terror əməliyyatı keçirə biləcəyindən, ermənilərin Qarabağı tərk etməsindən və Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasından danışıb.***

***-Vüqar müəllim, 10 gündən çoxdur ki, Ermənistan silahlı qüvvələrinin bölmələri bir neçə istiqamətdə Azərbaycan Ordusunun mövqelərini atəşə tutur. Avqustun 22-də ermənilərin törətdiyi təxribat zamanı bir hərbçimiz də yaralanıb. Düşmənin son vaxtlar mövqelərimizi atəşə tutmaqda məqsədi nədir və bu onların genişmiqyaslı təxribat hazırlıqlarından xəbər verirmi?***

-44 günlük Vətən müharibəsi ilə həsrətində olduğumuz torpaqlara qovuşduq. Azərbaycan Ordusu qazandığı qələbə ilə bizi dünyanın ən qürurlu xalqlarından biri etdi. Ermənilərin özündənrazılığı və illərdir yaratdıqları "məğlubedilməz erməni ordusu" mifi darmadağın edildi. Müharibənin qaydalarında qalib tərəfin tələbləri olur. Azərbaycan qələbə qazanmasına baxmayaraq, onları bir kənara qoydu və Ermənistanı sülhə dəvət etdi. Ölkəmiz bölgəyə daimi və dayanıqlı sülhün gəlməsi üçün əlindən gələni etməyə çalışdı. Proses bu gün də davam edir. Bunlara baxmayaraq, rəzil gündə olan, özünün tənəzzül dövrünü yaşayan bu toplum hikkəsindən və havadarlarının dəstəyindən ilhamlanaraq prosesi ləngitməyə çalışır. Ermənistan hələ də boş vədlərə inanaraq dünyaya səpələnmiş lobbi institutlarının üzvlərinin onlar üçün çaldığı laylaya uyaraq sülhdən yayınma fəaliyyətindədir. Hazırkı durumda Azərbaycanın sülhlə bağlı çağırışlarını bilinməyən zamana daşımağa çalışırlar. Həmin zaman ermənilər üçün əlverişli mühit deməkdir. Bu, Rusiya-Ukrayna müharibəsinin bitməsi, hansı tərəf qalib gələcəksə, onun yanında olması, hər hansı sənəd qəbul etdirib beynəlxalq gücləri bölgəyə cəlb etmək, onları öz oyunlarına alət etmək və s. məsələ üçün çalışırlar. Bu fonda Ermənistan növbəti ağır məğlubiyyətini alacaq. Necə ki, bu yaxınlarda BMT Təhlükəsizlik Şurasının iclasında biabır oldular, fiaskoya uğradılar. Bu proses dayanmadan gedəcək. Ona görə ki, Azərbaycanın gücü artır, beynəlxalq miqyasda mövqeyi möhkəmlənir və dostlarının sayı artır. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmiz hər keçən gün qüdrətini daha da artırır. Ona görə də Ermənistanın sülh müqaviləsinin bağlanmaması üçün çabaları onların ziyanına işləyir.

***-Ermənilər təxribatların sayını artırarsa, Azərbaycan anti-terror əməliyyatına başlaya bilərmi?***

-Azərbaycanın beynəlxalq hüququn verdiyi legitim hüquqları var. Həmçinin, konstitusiyamızın müddəaları var ki, biz onlardan lazımi anlarda istifadə etmək hüququmuzu qoruyub saxlayırıq. Hazırkı durumda Azərbaycan tərəfi məsələni sülh yolu ilə, daha çox diplomatik müstəvidə həyata keçirməyə çalışır. Onun da bəhrəsini görməkdəyik. Hələ də Qarabağda erməni hərbi və yarımhərbi birləşmələrinin olmasına baxmayaraq, onlar orada açıq oyun sərgiləyə bilmirlər. Azərbaycan bütün bunların qarşısını müvəffəqiyyətlə alır. Təbii ki, onların saxlanılmasının da fərqindəyik. Necə, haradan gəlməsi, nə qədər maliyyə xərclənməsi Azərbaycan tərəfinə məlumdur. Vacib strukturlar bunun üzərində işləyirlər. Rəsmi Bakı vacib olacaqsa, öz ərazisində, Xankəndi, Xocalı və digər ərazilərdə ildırım sürətli, xüsusi hazırlanmış proqramla anti-terror əməliyyatı keçirə bilər. Bunun üçün heç kimdən icazə almağa ehtiyacımız yoxdur. Ali Baş Komandanın göstərişi olacaqsa, həmin anda Azərbaycan tərəfi legitim hüququndan istifadə edəcək və bununla da növbəti dəfə ermənilərin beli qırılacaq. Hazırkı durumda məsələlərin masada həll olunması üçün çalışılır. Azəraycan tərəfi Qarabağın erməni sakinlərinin reinteqrasiya olunması üçün addımların atılmasında maraqlıdır. Bunlar baş tutmayacaqsa, digər vacib üsullardan da istifadə olunması qaçılmazdır. -Son günlər Qarabağı tərk edən ermənilərin sayı artıb. Məlum olduğu kimi, "Laçın" sərhəd-buraxılış məntəqəsində erməniəsilli şəxslərin sərbəst keçidi təmin olunur. Ermənilər Qarabağı niyə tərk edir? -Xankəndidə və ətraf bölgədə yaşayan ermənilərin son zamanlar oranı tərk etməsi hər birimizə məlumdur. Azərbaycan sərhəddə möhkəmləndirmə işləri gördükdən sonra oradakı separatçılar, xunta rejimi və onların əlaltıları çox çətin duruma düşüblər. Son məlumatlara görə, Xankəndi və ətraf bölgələrdə evlərin qiyməti sürətlə aşağı düşür. Artıq kirayə mənzil sistemi işləmir. Ona görə ki, artıq ora gələn yoxdur. Evləri və obyektləri dəyər-dəyməzinə satışa çıxarıblar. Ermənilər bildirirlər ki, bir müddət sonra burada "ASAN xidmət" fəaliyyət göstərəcək, Azərbaycan qanunları işləyəcək. Təbii ki, bunu istəməyənlər bu və ya digər formada Azərbaycan ərazisini tərk edirlər. Bu günlərdə "Laçın" sərhəd-buraxılış məntəqəsindən kütləvi surətdə Rusiya pasportu olan ermənilərin köçü başlayıb. Düşünürük ki, proses davamlı olacaq. Azərbaycan konstitusiyası, bayrağı altında yaşamaq istəyənlər bizimlə birgə layiqli həyat yaşayacaqlar. Heç vaxt olmadıqları qədər xoşbəxt ömür sürəcəklər. İstəməyənlər ən yumşaq formada desək, ölkəmizi tərk edib harada xoşbəxtdirlərsə, orada da yaşasınlar. Azərbaycan ərazisində yaşamaq istəyənlər isə digər azlıqlar kimi bərabərhüquqlu formada burada daimi yaşaya bilərlər.

***-Cənubi Qafqazda və dünyada gedən ciddi geosiyasi proseslər fonunda Azərbaycan Ermənistanla yekun sülh müqaviləsinin imzalanması üçün səylərini davam etdirir. Buna baxmayaraq, qarşı tərəf müxtəlif vasitələrlə və təxribatlarla sülh müqaviləsinin imzalanmasını uzadır. Ermənistanla sülh müqaviləsinin imzalanmasına kimlər mane olur?***

-Hazırda dünyada yeni siyasi arxitektura formalaşır. Rusiya-Ukrayna müharibəsi qlobal dəyişiklikləri zəruri edir. Gözümüzün önündə yeni siyasi arxitektura və konfiqurasiya güclü, daha rasional siyasət həyata keçirən ölkələrin xeyrinə dəyişməkdədir. Rusiya-Ukrayna müharibəsinin sonluğu da bir çox məsələlərə aydınlıq gətirəcək. Hazırkı durumda bu qlobal dəyişimlərdə Azərbaycan dünyanın azsaylı sürətlə inkişaf edən, mövqeyi möhkəmlənən ölkələrindən biridir. Dünyada Azərbaycanın dostlarının sayı artır. Beynəlxalq platformada Prezident İlham Əliyevin nüfuzu sürətlə irəliləyir və cənab Prezident dünya liderləri içərisində xüsusi çəkiyə malik siyasətçi kimi tanınır. Bu da ölkəmizin uğurlar əldə etməsi üçün vacib amillərdən biridir. Bu fondan baxsaq, hazırda Ermənistanın arxasında duran qüvvələr aktivləşib. Onlar da dünyada, beynəlxalq platformalarda manipulyasiyalarla məşğuldurlar. Yəni, erməni yalanının hərəkətverici qüvvəsinə çevriliblər. Buna nümunə olaraq Fransanı, Hindistanı, İranı və s.-ni söyləmək olar. Bir neçə ölkə açıq şəkildə Azərbaycanla mübarizəyə keçib. Doğrudur, heç nəyə nail ola bilməsələr də, sülh müqaviləsinin imzalanmasına mane ola bilirlər. Təbii ki, Azərbaycanla mübarizə aparmaqla yanaşı, eyni zamanda Türkiyənin də güclənməsinin əleyhinə çalışırlar. Çünki Azərbaycan və Türkiyənin birgə güclənməsindən, bölgədə güc sahibinə çevrilməsindən sonra bu dövlətlərin tarixən bizə olan kin və nifrəti açıq müstəviyə keçib. Onlar hər vəclə bu inkişafı tormozlamağa cəhd edirlər. Bu konteksdən baxsaq, Ermənistan həmişəki kimi maşa obrazı rolundadır. Onlar bilmədən Ermənistana ayı xidməti göstərirlər. Bunu onlara yaxşılıq kimi etsələr də, bu siyasətləri Ermənistanın ziyanına işləyir. Ermənistan hazırda təcrid olunmuş formada və qulpsuz çamadan olan dövlətdir. Onu daşıya bilmirlər. Ona görə ki, qulpu yoxdur. Amma yerdə də qoymaq istəmirlər. Çünki içi doludur. Ermənistan onlar üçün yükdür. Bu siyasət Ermənistanı olduğu bölgədə təcrid duruma salıb. Qonşu dövlətlərlə olan konfliktlər, islamafobiya, türkfobiya və nifrət ruhunda olan xalqın tərbiyəsi onları uçuruma aparmaqdadır. Zaman keçir, bu toplum özündə bəşəri dəyərləri tərbiyə edə bilmir. Onların kilsələri, yalançı tarixi və tarixçiləri, xaricdə onları dəstəkləyən qüvvələrin hər biri günahkardır. Düşünürük ki, Ermənistan nə zamansa bunu anlayacaq. Onlar uzun illər itiriblər ki, dünyanın bir parçasına çevrilə bilsinlər. Hazırkı durumda erməni siyasəti, dünya erməniliyi həmin məsələdə Ermənistana yalnız ziyan vurmaqla məşğuldur. Onlar sülh müqaviləsinin bağlanmasını ləngitməklə özlərinə ziyan vururlar. Zaman Ermənistanın ziyanına işləyir. Hər keçən gün Azərbaycanı inkişafa, qələbəyə, Ermənistanı isə acı məğlubiyyətə aparır.



***Anar Kəlbiyev***

# İcra başçılarının böyük "yarpaq tökümü"

## Rayon rəhbərlərinin çoxu işsiz qalacaq - İlginc təfərrüatlar...



***Son zamanlar Azərbaycanın idarəetməsində və ictimai-siyasi həyatında maraqlı tendensiya müşahidə olunur. Bir sıra dövlət qurumları, müəssisələr, təşkilatlar, hətta siyasi partiyalar belə birləşir, yaxud ləğv edilir. Sözügedən təmərküzləşmə prosesi ölkənin dövrün çağırışlarına uyğun genişmiqyaslı islahatlar prosesinin nəticəsi olaraq qiymətləndirilir, bir yandan dövləti, o biri yandan cəmiyyəti əlavə yüklərdən xilas etmək, formallıqdan uzağa getməyən qurumların fəaliyyətinə xitam vermək, hökumətin komplektləşdirərək onun daha çevik, real iş vərdişlərini yaratmaq cəhdi kimi dəyərləndirilir.***

Gələn iddialar bu yöndədir ki, sözügedən tendensiya yerli icra hakimiyyətlərini də əhatə edəcək. Belə ki, yaxın 1 il ərzidə ölkədə konstitusiyaya dəyişikliklər məqsədilə referendum keçiriləcəyi, nəticədə ümumxalq səsverməsi ilə qəbul olunmuş dəyişikliklərə uyğun şəkildə yerli idarəçilikdə ciddi reformlara start veriləcək.

Bir az da dəqiqləşdirsək, bir neçə rayonun yerli idarəçiliyinin bir icra hakimiyyətinə həvalə olunacağına dair iddialar mövcuddir. Qısası, indiki ərazi vahidlərinin dəyişdirilməsi, vilayətlərin (ad şərtidir) yaradılması nəzərdə tutulur. Bu isə xeyli sayda icra başçısının öz vəzifəsi ilə vidalaşmaq məcburiyyətində qalacağı anlamına gəlir.

Qeyd edək ki, icra hakimiyyətlərinin ləğvi məsələsi bir neçə dəfə gündəmə gətirilib. Hesab olunur ki, yerli icra hakimiyyətlərinin sayı 10-a qədər azaldılmalıdır. Bu isə onunla izah edilir ki, Azərbaycan ərazi baxımından böyük ölkə deyil. Ona görə də çoxlu sayda rayon icra hakimiyyətlərinin mövcudluğu yeni tələblər baxımından da məqsədəuyğun deyil. Əvvəla, büdcə xərclərinin azalmasına ehtiyac var, digər vacib məqam yerlərdə daha çevik qərarların qəbul edilməsidir. Bu həm də imkan verəcək ki, rayonlar maliyyə baxımından özlərini təmin edə bilsinlər. Rayonların regional birləşdirilməsi biznes mühitini yaxşılaşdırmaq, şəffaflığı artırmaq, icra hakimiyyəti orqanlarının biznesə müdaxilələrini minimallaşdırmaq baxımından da böyük fayda gətirəcəyi şübhəsizdir.

Unutmayaq ki, icra hakimiyyətləri sovet idarəetmə sistemində rayon partiya komitələrinin adı dəyişən şəklidir. MDB ölkələrinin əksəriyyətində bu modeldən imtina edilib, fərqli modellər (məsələn, quberniyalar vəs .) işə salınıb.

Xatırladaq ki, 2022-ci ilin mayında Prezident İlham Əliyev "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxışı zamanı icra hakimiyyətlərinin ləğvinin anonsunu verib. Prezident azad edilmiş ərazilərdə tətbiq edilən xüsusi nümayəndəlik təsisatının simasında yeni idarəçilik modelinin sınaqdan keçirildiyini və digər ərazilərdə də bunun tətbiq olunacağını bildirmişdi. "Qarabağda sınaqdan keçirdiyimiz yeni sistem fərqli olacaq və düşünürəm ki, yekun sınaqlar bitəndən sonra bu sistemi Azərbaycanın digər ərazilərinə də tətbiq etmək və regionlarda dövlət idarəçiliyini təkmilləşdirmək mümkün olacaq. Çünki Bakıda qəbul etdiyimiz qərarların hamısı insanların həyat şəraitinin və infrastrukturun yaxşılaşdırılması, iqtisadi inkişaf məqsədi daşıyır, amma bəzən onlar regionlarda icra edilmir və insanlar bunu görmür", - dövlət başçısı vurğulamışdı.

İndiyədək icra hakimiyyətlərinin ləği ilə yanaşı rayonların birləşdirilməsi, yeni idarəetmə mexanizminin tətbiqi barədə səsləndirilən təkliflərin həyata keçirilməsi istiqamətində ilk addımlar, ölkə rəhbərinin də öz çıxışında qeyd etdiyi kimi, Qarabağda tətbiq olunan yeni sistemin Azərbaycanın digər ərazilərində də sınaqdan keçirilməsi artıq qaçılmaz reallığa çevrilir. Yeni idarəetmə modeli ümumilikdə müsbət qiymətləndirilir və effektiv olacağı şübhə doğurmur.

Bircə icra başçılarının bunu məyusluqla qarşılayacağını təxmin eləmək mümkündür. Çünki proses onların böyük hissəsinin vəzifəsiz qalmasına gətirib çıxaracaq.

Üstəlik, yuxarı dairələrdə yeni yerli idarəçilik formatında müxtəlif regionlar üzrə icra başçısı təyinatları ilə bağlı müəyyən rəqabətin yaranması da istisna olunmur. Hər bir halda bir neçə rayonun idarəçilik baxımından vahid icra hakimiyyəti altında birləşdirilməsi nəticəsində icra başçısı vəzifəsi yaxın gələcəkdə indikindən daha yüksək post statusu qazanacaq, həmin posta gətiriləcək nərin sərəncamında kifayət qədər geniş səlahiyyətlər, təsir imkanları, büdcə vəsaitləri olacaq. Bunu nəzərə alan bəzi hökumətdaxili çevrələrin özlərinə yaxın şəxsləri bu postlara təyinat etdirməyə çalışmaq baxımından hərəkətə keçməsi mümkündür.

Beləliklə, yaxın gələcəkdə bizi yerli idarəçiliyin modernləşdirilməsi, yığcamlaşdırılması, sonuc etibarilə isə daha çevik, effektiv, səmərəli fəaliyyət dönəminə start verilməsi baxımından maraqlı proseslər gözləyir.

***Toğrul Əliyev***



# Ermənistanın cinayətləri ATƏT qarşısında ifşa edildi

***Çexiyada fəaliyyət göstərən Azərbaycan icması Praqa şəhərində ölkəmizin sülh səylərinin dərk edilməsi və dəstəklənməsi ilə bağlı növbəti məlumatlandırma aksiyası keçirib.***

"Unikal" xəbər verir ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Boris Nemtsov meydanı 529/2 ünvanında yerləşən Praqadakı Sənədlər Mərkəzi önündə baş tutan aksiya Azərbaycan icmasının fəalı Fərid Əmirəliyevin təşkilatçılığı ilə gerçəkləşdirilib.

Aksiya zamanı "Azərbaycan sülh istəyir, Ermənistan müharibə istəyir", "Ermənistan sülhü rədd edir, müharibəni seçir", "Ermənistan, sülh sazişini imzala!", "Azərbaycan torpaqlarında Ermənistan əsgəri olmamalıdır!", "Ermənistan, hücumu dayandır!", "Ermənistan, bizim torpaqlarımızın minalandırılmasını dayandır!", "Ermənilərin minaları dinc sakinləri öldürür!", "Azərbaycan ərazilərində ekoloji terrorun törədilməsinə son qoyulsun!", "Ermənistan İrəvandakı Azərbaycan mədəni irsini məhv edir", "Azərbaycanın təbii sərvətlərinin talanına son qoyulsun!", "Ətraf mühitə düzəldilməsi mümkün olmayan ziyanın vurulmasına son qoyulsun!" və sair şüarların əks olunduğu plakatlar nümayiş etdirilib.

Bu addımla icmamız ATƏT-in diqqətini Ermənistanın yenidən beynəlxalq ictimaiyyəti siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək cəhdləri göstərməsinə yönəldib. Azərbaycan icması ATƏT-i bu kritik və önəmli mərhələdə erməni yalanlarına inanmamağa, Azərbaycanın sülhsevər mövqeyini əməli şəkildə dəstəkləməyə və tərəflər arasında konstruktiv dialoqun təşviqinə yardım göstərməyə çağırıb.

Aksiya ilə maraqlanan Praqa sakinlərinə Ermənistanın ölkəmizə qarşə hərbi və ekoloji cinayətləri barədə ətraflı məlumat verilib. 30 il ərzində Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycanın Qarabağ bölgəsinin xarabalığa çevrildiyi və 2020-ci ildə baş vermiş müharibədən sonrakı aktual problemlərin indiyədək həllini tapmaması vurğulanıb. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərində basdırılmış minaların insan həyatını təhdid etməsi, 2020-ci il müharibəsindən bu günə qədər Azərbaycanda mina qurbanlarının sayının 303 nəfərə çatması, rəsmi İrəvanın dəqiq mina xəritələri verməkdən imtina etməsi və bununla da insan hüquqlarını kobudcasına pozulması, erməni KİV-lərinin azərbaycanlılara qarşı pis rəftarla bağlı pərakəndə sübutlar yaymasının III Cenevrə konvensiyasına zidd olması, azərbaycanlı hərbiçilərin girov götürülərkən fiziki, mənəvi işgəncələrə və təhqirlərə məruz qalması, Azərbaycanın Qarabağ bölgəsində qızıl və mis-molibden yataqlarının qeyri-qanuni istismar edilməsi, 60 min hektardan çox meşə sahəsinin darmadağın edilməsi, çaylarımızın çirkləndirilməsi, Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərində, o cümlədən nəqliyyat-kommunikasiya yolları üzərində suverenliyini qorumağa çalışması, Xankəndi-Laçın yolunun açıq olması kimi faktlar nəzərə çatdırılıb.

# Gələn həftə deputatların tətili başa çatır

***Gələn həftə Azərbaycan Milli Məclisinin deputatlarının tətil müddəti başa çatır.***

"Unikal" xəbər verir ki, millət vəkillərinin yay tətili avqustun 30-da bitəcək. Sentyabrın 15-dən etibarən parlamentin komitələri fəaliyyətə başlayacaq.

Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, parlamentin payız sessiyası sentyabrın 30-da başlayır və dekabrın 30-dək davam edir. Əgər sentyabrın 30-u istirahət, səsvermə, iş günü hesab edilməyən bayram gününə düşərsə, sessiya bu gündən sonra gələn birinci iş günü öz işinə başlayır.

Xatırladaq ki, deputatlar iyulun 14-də tətilə çıxmışdı.



## Metrodan bu qədər sərnişin istifadə edir

***Bu il Bakıda metrodan istifadə edən sərnişinlərin sayı açıqlanıb.***

"Unikal" xəbər verir ki, 2023-cü ilin yanvar-iyul aylarında metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 8,8 faiz artaraq, 124,3 milyon nəfər olub.

Ümumilikdə qeyd olunan dövr ərzində Azərbaycanda nəqliyyatçılar 1041,1 milyon sərnişinə xidmət göstəriblər. Sərnişinlərin 87,5 faizi avtomobil nəqliyyatı, 11,9 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb.

Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə 911,5 milyon sərnişin daşınıb və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 5,1 faiz və 17,3 faiz artım qeydə alınıb. Sərnişinlərin 95,0 faizi avtobus, 5,0 faizi isə minik taksilərinin xidmətlərindən istifadə edib. Yük dövriyyəsi 4,7 faiz, sərnişin dövriyyəsi isə 17,0 faiz artıb.

## Məktəb ləvazimatları neçəyədir? - Qiymətlər

***Yeni tədris ilinin başlanmasına sayılı günlər qalıb.***

Bəs hazırda mağazalarda qiymətlər necədir? Trend-in əməkdaşı paytaxtda yerləşən məktəb ləvazimatları satan mağazalara baş çəkərək qiymətlərlə tanış olub. Qiymətlər ötən illə nisbətdə müxtəlif ləvazimatların qiymətlərində 10 qəpikdən 3 manata qədər bahalaşıb. Satıcılar bildiriblər ki, bahalaşma daşınma qiymətlərinin bahalaşmasıyla əlaqədardır. Valideynlər daha çox sentyabrın 1-dən sonra məktəb ləvazimatlarını almağa üstünlük verirlər. Ancaq indidən almağı məsləhət görülür. Çünki tədris ilinin başlamasına bir həftə qalmış həm sıxlıq olur həm də ləvazimatlara cüzi də olsa bahalaşa bilər.

Beləliklə əsas məktəb ləvazimatlarının qiymətləri aşağıdakı kimidir:

Çanta: 18-55 manat
Dəftər: 40 qəpik - 2,50 manat
Sadə karandaşlar: 10 qəpik -1,80 manat
Rəsm albomları: 1-5 manat
Dəftər-kitab üzlükləri: 20-50 qəpik
Sadə qələmlər: 20- qəpik, daha keyfiyyətliləri 1 manata qədər
Rəngli karandaşlar: 2-8 manat
Pozan: 30-50 qəpik
Qələmyonan: 15 qəpik - 1 manat 20 qəpik
Xətkeş: 30 qəpik -2,50 manat
Plastilin: 1- 4,50 manat
Quaş: 1-4 manat
Fırça: 30-50 qəpik
Pərgar dəsti: 1 - 3,6 manat

## Laçının Zabux kəndinə ilk köç olacaq

***Avqustun 25-də Laçının Zabux kəndinə ilk köç olacaq.***

İlk mərhələdə 88 nəfərdən ibarət 20 ailənin Zabuxa köçü nəzərdə tutulub.

Bakıdan Zabuxa yolasalma Lökbatanda məcburi köçkünlər üçün salınmış "Qobupark-3"də məktəbin qarşısında olacaq.

Qeyd edək ki, ailə tərkibinə uyğun olaraq, onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü beşotaqlı mənzillə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

# Ətin bahalaşmasında məmur izləri

### Örüş və əkin sahələrini zəbt edən vəzifəlilər, onların himayəsindəki iş adamları ittiham hədəfinə çevrilib

***Son günlər Azərbaycanda sümüklü mal ətinin 1 kiloqramının qiyməti 15-16 manata çatıb. Halbuki, ilin əvvəlində 11-12 manata sümüklü mal əti almaq olurdu. Bahalaşmaya müxtəlif səbəblər, o cümlədən Rusiya və Ukraynadan ət idxalının kəskin azalması göstərilirdi.***

Bundan başqa, son 3 ildə heyvan yemlərinin təxminən 80% bahalaşdığı deyilir. Bəzi ekspertlərin fikrincə, turizm mövsümü ilə əlaqədar regionlarda ətə tələbatın artması da qiymət yüksəlişində müəyyən paya malikdir. Lakin bir sıra mütəxəssislər yuxarıda sadalananları ətin bahalaşmasında obyektiv səbəblər olaraq göstərir və əlavə edirlər ki, ortada subyektiv səbəblər də var. Onlarla razılaşmamaq mümkün deyil: rəsmi statistikadan aydın olur ki, Azərbaycanın ət istehsalında 3 faiz artım göstərilir, üstəlik, ətin ölkəyə idxalında da artım var. Artım ölkəyə kəsim üçün gətirilən diri heyvanların sayında da müşahidə olunur. Və nəhayət, dünya bazarında ətin bahalaşması nəzərə çarpmır. Elə isə Azərbaycanda ətin qiyməti niyə bu qədər sürətlə, az qala qarşısıalınmaz şəkildə qalxır? Məhz yuxarıdakı sual səbəbindən diqqəti mütəxəssislərin vurğuladığı subyektiv, süni səbəblərə yönəltməkdə fayda var. Misal üçün, "Azad İstehlakçılar Birliyi"nin sədri Eyyub Hüseynov bir neçə gün öncə deyib ki, fərdi təsərrüfatlarda yetişdirilən heyvanların bazara çıxarılıb satılması demək olar ki, mümkün deyil. Bazarda söz sahibi alverçilərdir. Onların ət biznesi ilə sıx əlaqələri var və heyvan sahiblərinə malı birbaşa satmağa imkan vermirlər. Özü də alverçilər demək olar ki, qeyri-qanuni fəaliyyət göstərir, vergi ödəmir, özlərinə sərf edən qiyməti ətin üzərinə qoyur və bununla da bahalaşmaya stimul verir. Bəs onlar həmin cəsarəti haradan alırlar? iddialara görə, müəyyən məmurlardan! Belə ki, bəzi aidiyyatı qurumlar ət bazarında həlledici söz sahibinə çevrilən alverçiləri himayə edirlər, daha doğrusu, nələrinsə müqabilində (!) onların qanunvericiliklə tənzimlənməyən fəaliyyətlərinə göz yumurlar. Digər tərəfdən, yenə E.Hüseynovun sözlərinə görə, heyvandarlıq sektoru getdikcə meqafermaların əlində cəmləşir. Onların yem və su resurslarına əlçatanlığı yüksək səviyyədədir, bu resursları elə mənimsəyiblər ki, fərdi təsərrüfatları asanlıqla sıxışdıra, kartel sövdələşmələrinə gedə və bazarda qiymətləri diktə edə bilirlər.

"Unikal"ın araşdırmasına görə, burada da məmur maraqları önə çıxır. Bir az da dəqiqləşdirsək, haqqında danışılan meqafermaların arxasında müəyyən vəzifəli şəxslərin dayandığına dair iddialar var. Məsələn, bəzi icra başçılarının şəxsi biznesinə həmin böyük təsərrüfatlar da daxildir. Belə ki, bir sıra rayonların yerli rəhbərləri həmin rayonların ərazisində iri əkin və otlaq sahələrini az qala özününküləşdiriblər, fermer təsərrüfatları qurublar. Kiçik fermerlər, fərdi təsərrüfat sahibləri uzun müddətdən bəridir etiraz səslərini ucaldırlar: bölgələrdə heyvan saxlamaq üçün örüş yerləri yox səviyyəsindədir, məmurlar tərəfindən hər yer tutulub, əkinlə məşğul olmağa su belə yoxdur! Belə olan təqdirdə heyvandarlıqla necə məşğul olaq? Məhz yuxarıda sadalananları nəzərə alaraq ekspertlər də xeyli vaxtdır mediaya açıqlamalarında vurğulayırlar ki, ətin, eləcə də digər məhsulların bahalaşmasının qarşısını almaq üçün rəqabət mühiti artırılmalı və iqtisadi qanunlar işə düşməlidir. Onlar əlavə edirlər ki, məmurlar, deputatlar sadəcə "süni qiymət artımı" ifadəsi ilə kifayətlənməməli, dayanmaq bilməyən bahalaşma tempinin önünə keçmək üçün konkret addımlar atılmasına nail olmalıdılar.



Yeri gəlmişkən, illər öncə bir eksprt yerli KİV-ə açıqlamasında bəzi məmurların heyvandarlığa ciddi həvəs göstərməsini maraqlı şəkildə izah etmişdi. Sitat: "Azərbaycan tarixən aqrar ölkə olub, burada keçmişdə xanlar, bəylər öz qoyun sürüləri, naxırları, at ilxıları ilə öyünüblər. Onların sərvətləri heyvanların miqdarına görə ölçülüb. indi özlərini xan-bəy hesab edən məmur-oliqarxlar ehtiyacları olmasa da heyvandarlıq təsərrüfatları yaradırlar. Bəzən deyirlər burada nə qəbahət var axı, kənd təsərrüfatına xeyir verirlər də. Amma belə deyil. Əslində vəzifə sahiblərinin bu işlə - bizneslə məşğul olması sahibkarlığa böyük zərbədir. Çünki onlar səlahiyyətlərindən sui-istifadə edib bu sahəni də inhisara götürür, bölgələrdə kəndlilərin örüş yerlərini, otlaq sahələrini, hətta özəl təsərrüfatlarını əllərindən alırlar. Heyvandarlığın istənilən şəkildə inkişaf etməməsinin səbəbi bu sahənin də ciddi inhisarda olması ilə bağlıdır". Fikrimizcə, yuxarıdakı fikirlərlə razılaşmaq mümkündür, lakin istənilən halda dövlətin aqrar sahəyə, o cümlədən heyvandarlığa ciddi dəstək verdiyi şəraitdə kənd təsərrüfatı məhsullarının qiymətindəki bahalaşmanın ardıcıl və sürətli şəkil alması yönündə əlaqədar qurumların ciddi düşünməsinə, vaxt itirmədən daha konkret, nəticəyə təsir edəcək addımlar atmasına əşhədü-ehtiyac var!

***Toğrul Əliyev***

# Azərbaycanda özəl məktəblərin yeni dərs ilində qandonduran qiymətləri

***Onsuz da çox yüksək olan təhsilhaqları 500 manatdan 2 min manatadək bahalaşdı - Fantastik rəqəmlər!***

Azərbaycanda özəl liseylərin qiymətləri yenidən bahalaşıb. Bu barədə sosial şəbəkədə valideynlər bildirib. Məlumatlara görə, qiymətlərin bahalaşmasına baxmayaraq, əksər özəl liseylərdə siniflər dolduğu üçün şagird qəbulu dayandırılıb.

Sputnik Azərbaycan-ın məlumatına görə, bəzi özəl məktəblərdə qiymətlər aşağıdakı kimidir: "Kaspi" Liseyi. Azərbaycan bölməsi üçün təhsilhaqqı liseyin filialından asılı olaraq dəyişir. Azrbaycan bölməsi üzrə ibtidai siniflər üzrə illik təhsilhaqqı 7300-7800 manat, 5-11 siniflər üzrə isə 7800-8300 manatdır. Liseyin ingilis dili bölməsində isə ibtidai siniflər üzrə illik təhsil haqqı üçün 7950-9700 manatdır. 5-6-cı siniflər üzrə ingilis dili bölməsində təhsilhaqqı isə 10300 manat təşkil edir. Bu qiymətə dərsliklər, geyim, qidalanma dərnək daxildir. Bu liseydə rus bölməsində ibtidai siniflərdə illik təhsilhaqqı 8800 manat, 5-11-ci siniflərdə isə 9300 manatdır.

Avropa Azərbaycan Məktəbi. Tədrisin ingilis dilində aparıldığı bu özəl orta təhsil müəssisəsində məktəbəqədər bölmədə təhsilhaqqı 7900 manatdır. İbtidai sinif üzrə illik təhsil haqqı 10400, 5-11 ci siniflər üzrə isə ödəniş 12500-15500 manat təşkil edir. Qiymətə qidalanma, məktəb forması, dərsliklər daxildir.

Xəzər Universitetinin Dünya Məktəbi. Azərbaycan-rus bölməsi üzər ibtidai 5-11 siniflər üzrə illik təhsil haqqı 9000 -9500 manatdır. İngilis bölməsi üzrə isə qiymətlər 10000 manatdan çoxdur.

"Hədəf Liseyi". Məktəbəqədər təhsil Azərbaycan bölməsində illik 4000 manat, rus bölməsində isə 4500 manatdır. İngilis dili üzrə qiymətlər 5000 manatdır. 1-11-ci siniflər üzrə Azərbaycan bölməsində illik təhsil haqqı 8000, rus dilli bölmədə 8500, ingilis dilində isə 9000 manatdır. Qiymətə gün ərzində iki dəfə qidalanma, forma, dərsliklər daxildir.

"Bakı Oksford Məktəbi". Məktəbəqədər təhsilhaqqı illik 8500 manatdır. Buraya uniforma, qəlyanaltı, nahar, dərnəklər daxildir. İbtidai sinif üzrə qiymətlər 16500, 6-8 siniflər üzrə 16800, 9-11-ci siniflərdə isə 17000 manatdır. Həmin qiymətə kitablar da daxildir.

"Heydər Əliyev adına Müasir Təhsil Kompleksi". Məktəbəqədər təhsilhaqqı illik 12000 manatdır. İbtidai təhsil üzrə illik təhsilhaqqı 16500, yuxarı siniflərdə isə 17000 manatdır. Bu qiymətə gündə 3 dəfə qidalanma daxildir. Azərbaycan bölməsində isə təhsilhaqqı 13200 manat təşkil edir.

"SABIS Sun" Beynəlxalq Məktəbi. Məktəbəqədər təhsil haqqı 12530 manatdır. Bu təhsil müəssisəsində ibtidai siniflər üzrə illik təhsil haqqı 13 min manat, 6-7-8-ci siniflərdə 13700, 10-cu sinifdə 14500, 11-12-ci siniflərdə isə 15 min manatdır. Bu qiymətlərə kitablar da daxildir.

"Müasir İnnovasiyalar Liseyi". Məktəbəqədər təhsil rus bölməsi üzrə illik 5500 manatdır. İngilis bölməsi üzrə qiymət 6500 manat təşkil edir. İbtidai siniflər üzrə rus bölməsində illik təhsil haqqı 7200 manat, ingilis dili bölməsində isə 7500 manatdır. Yuxarı siniflərdə isə illik təhsil haqqı rus bölməsində 7500, ingilis dili bölməsində 8500 manatdır. Qiymətə qidalanma, məktəbli forması, kitablar daxildir.

"Bakı Fransız Liseyi". İlkin qeydiyyat haqqı - 300 manatdır. Bu məbləğ yalnız liseyə ilk dəfə qeydiyyata düşərkən ödənilir və geri qaytarılmır. Təkrar qeydiyyat haqqı 600 manatdır və geri qaytarılmır. Bağça üçün illik təhsilhaqqı 9680 manat, ibtidai siniflər üzrə 18150 manat, 6-12 siniflər üzrə isə 19 480-22 990 manatdır.

"Zirvə liseyi". Məktəbəqədər təhsil haqqı Azərbaycan və rus bölməsində 3800 manat, ingilis bölməsində 4800 manatdır. İbtidai siniflər üzrə illik təhsilhaqqı azərbaycan bölməsində 5300, rus bölməsində 5500- 5800 manatdır. 5-11 siniflər üzrə azərbaycan bölməsində təhsil haqqı 5800, ingilis bölməsində isə 6100- 7000 manatdır.

"Landau School". İlik təhsilhaqqı bahalaşaraq 6000 manatdan 8000 manata yüksəlib. Yuxarı siniflərdə isə qiymətlər 10000 manatdan yuxarıdır.

"Azerbaijan British Collece" (ABC). Cari il üçün təhsil haqqları aşağıdakı kimidir: məktəbəqədər təhsil bölməsi - 10500 manat, ibtidai təhsil bölməsi - 19500 manatdır. Orta təhsil bölməsi üçün təhsil haqqı qiyməti-20650 -21000 manatdır. Məktəbli forması, məktəbin servis avtobus xidməti və bəzi dərsdən kənar məşğələlər illik təhsil haqqına daxil deyil, əlavə ödənişlədir. Təhsil Kompleksi şagirdləri günorta yeməyi ilə təmin edir.



Beləliklə, aydın olur ki, Azərbaycanda özəl liseylərdə illik təhsil haqqında 500-2 min manat arasında artım var. Onsuz da ölkəmizdə özəl orta təhsil qonşu ölkələrlə müqayisədə xeyli bahadır, yeni qiymətlər isə bu fərqi daha da yüksəldib. Məsələn, Rusiyada özəl orta məktəblərdə illik təhsilhaqqı 20-90 min rubldur. Bu isə Azərbaycan valyutası ilə 362-1,629 manat edir. Gürcüstanda ödənişli orta təhsil məktəblərində illik təhsilhaqqı 2500 ABŞ dolları təşkil edir. Bu isə Azərbaycan valyutası ilə illik 4,250 manat deməkdir.Belə görünür, ölkəmizdə özəl orta təhsil qiymətləri Türkiyədəki qiymətlərə daha yaxındır. Qardaş ölkədə özəl orta məktəblərdə illik təhsilhaqqı 353,537-157,886 tl-dir. Bu isə Azərbaycan manatı ilə 9,867- 22000 manat deməkdir.

Onu da deyək ki, bir çox ekspertlər Azərbaycandakı özəl məktəblərin bu qədər fantastik qiymətlər müqabilində verilən təhsilin adekvat olmadığı qənaətindədir. Hətta belə məktəblərin bir çoxunda vəziyyətin dövlət məktəblərindən xüsusi fərqlənmədiyini iddia edənlər də var. Mütəxəssislərin fikrincə, sözügedən özəl təhsil müəssisələri ictimaiyyətə qapalıdır, aidiyyatı qurumların bu məktəblər üzərində ciddi nəzarətindən danışmaq da mümkün deyil, ona görə də ortada müəyyən suallar var. Məsələn, aydın deyil ki, onlarda pedaqoqların ixtisas səviyyəsi necədir...

***Sənan Mirzə***



# Azərbaycan səfiri Türkiyənin Baş Qərargah rəisi ilə görüşdü

***Azərbaycan səfiri Rəşad Məmmədov Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakla görüşüb.***

"Unikal" xəbər verir ki, səfir bu barədə sosial şəbəkədə yazıb.

"General Metin Gürakı ofisində ziyarət etdik, ona yeni vəzifəsində uğurlar arzuladıq. Biz inanırıq ki, qardaş ölkələrimiz arasında müdafiə sahəsində əməkdaşlıq bundan sonra da inkişaf edəcək", - R.Məmmədov qeyd edib.

# 98 yaşlı Laçın sakini 30 il sonra doğma yurduna qayıtdı



***Laçın şəhərinin 98 yaşlı sakini Nərgiz Xəlil qızı Əsədova 30 illik ayrılıqdan sonra doğma yurda qayıdıb.***

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən "Unikal"a verilən məlumata görə, artıq bir aydan çoxdur ki, o, şəhərdəki bərpa olunmuş evində yaşayır. Laçını daha da abad görməsindən böyük sevinc və qürur hissi keçirir. Buradakı yeni həyatından, onlar üçün yaradılmış şəraitdən razılıq edən Nərgiz nənə dövlətimizin başçısı, cənab Prezident İlham Əliyevə minnətdarlıq bildirir...

Dövlət Komitəsi Ərazisi işğaldan azad olunmuş rayonların sakinləri ilə müsahibələr əsasında videoçarxların hazırlanmasını davam etdirir.

# Universitetlərə imtahansız qəbul olunanların sayı açıqlandı

***Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunanlar haqqında məlumat açıqlanıb.***



Dövlət İmtahan Mərkəzindən (DİM) verilən məlumata görə, məlum olduğu kimi, qəbul qaydalarına əsasən, beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri, həmçinin beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil alan abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdirlər.

Artıq 2023/2024-cü tədris ili üçün ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malik olan şəxslər bəllidir. Onların Dövlət İmtahan Mərkəzinə müraciətləri əsasında sənədləri yoxlanılıb və ixtisas seçimi etmək üçün Mərkəzə dəvət olunublar.

Nəticələrə əsasən, bu il 2 nəfər beynəlxalq fənn olimpiadası, 50 nəfər respublika fənn olimpiadası, 98 nəfər beynəlxalq idman yarışlarının qalibi olduğu, 32 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları (IB və A-Level) üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ qazanaraq müvafiq ixtisaslara yerləşdirilib.

Bundan əlavə, 314 abituriyent SAT imtahanının nəticələrinə əsasən, 124 abituriyent isə ADA məktəbinin məzunu kimi ADA Universitetinə qəbul olunub.

# General Orucovun 12 il 6 ay həbsi tələb olundu



***"Tərtər işi" ilə bağlı ittiham olunan general-mayor Bəkir Orucov, İntiqam Məmmədov, Rahib Məmmədov, Ziya Kazımov və Ülvi Rəşidovun məhkəmə istintaqı başa çatıb.***

"Qafqazinfo"nun əldə etdiyi xəbərə görə, Sumqayıt Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda prokuror ittiham nitqi ilə çıxış edib.

Prokuror Bəkir Orucov və Ziya Kazımovun 12 il 6 ay, İntiqam Məmmədov və Ülvi Rəşidovun 10 il 6 ay, Rahib Məmmədovun isə 8 il 6 ay azadlıqdan məhrum edilməsini tələb edib.

Vəkillərə müdafiə çıxışına hazırlaşmaq üçün sentyabrın 14-nə kimi vaxt verilib.

# "Uşağı qəsdən öldürmək istəsəm, kameranın altında niyə edirdim?" - Həbs olunan məşqçi

***Məşq zamanı 7 yaşlı Fərid Bakarovu xüsusi amansızlıqla öldürməkdə ittiham olunan idmançı Mehman Xəlilovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.***



"Qafqazinfo"nun məlumatına görə, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində hakim Fəhmin Hümbətovun sədrliyi ilə keçirilən iclasda təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Müdafiə və zərərçəkmiş tərəf indiki mərhələdə hər hansı vəsatətlə çıxış etməyib. Dövlət ittihamçısı təqsirləndirilən şəxs barəsində seçilmiş qətimkan tədbirinin davam etməsi şərti ilə işin məhkəmə baxışına təyin edilməsini istəyib. İş üzrə baxış iclası sentyarın 7-nə təyin edilib.

Təqsirləndirilən idmançının vəkili Anar Qasımlı saytımıza açıqlamasında müvəkkilinə verilmiş ittihamlara münasibət bildirib. Müdafiəçi ittihamlarla razı olmadıqlarını, hadisənin ehtiyatsızlıq səbəbindən baş verdiyini deyib: "Mehman Xəlilovun azyaşlını qəsdən öldürmək niyyəti olmayıb. Əməlindən peşmandır, amma özünü Cinayət Məcəlləsinin 124-cü (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə təqsirli bilir. Mehman istintaqa hadisə barədə geniş ifadə verib. İfadəsində deyib ki, əgər qəsdən öldürmək niyyətim olsaydı, bunu idman zalında, kameraların altında niyə edirdim ki? Dediyinə görə, Fərid perspektivli uşaq olub, amma mütəmadi olaraq məşqlərdən yayınırmış. Onu peşəkar idmançı kimi yetişdirmək üçün də bir az təzyiq göstərib. Müvəkkilimin özünə də qəribə gəlir ki, azyaşlı uşağı niyə qəsdən öldürmək istəsin axı? Burada qəsdən öldürmə cinayətindən söhbət gedə bilməz".

Vəkilin sözlərinə görə, təqsirləndirilən şəxsə ağır ittihamlar verilməsinin əsas səbəblərindən biri sosial şəbəkələrdə ciddi təpki göstərilməsi olub.

Qeyd edək ki, hadisə bu ilin aprel ayında qeydə alınıb. Mehman Xəlilovun məşqdə azyaşlılara qarşı qəddar davranışlarını əks etdirən görüntülər yayılıb. O, zərərçəkmiş Fərid Bakarovun saçından, başından, qulağından tutaraq havaya qaldırıb, həmçinin təpiklə vurub və digər təhlükəli hərəkətlər edib. Hadisə nəticəsində F.Bakarov vəfat edib.

M.Xəlilova qarşı ilkin olaraq Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi açılıb, barəsində həbs qətimkan tədbiri seçilib. İbtidai istintaqın sonunda onun əməli Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya təhlükəli üsulla adam öldürmə) və 120.2.9-cu (xüsusi amansızlıqla və təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə) maddələrinə tövsif edilib.

# Arif Əsgərovun xaricdəki biiznesi "axsayır"

## Sabiq nazir müavininin Avropa ölkələrində fəaliyyət göstərən şirkətləri "can üstədir"

***Sabiq nazir müavini Arif Əsgərovun ölkədən kənarda geniş biznes şəbəkəsinə sahib olduğu barədə illər əvvəl çox yazılıb. Özü və övladları ilə bağlı mediada davamlı şəkildə qalmaqallı xəbərlər yayılan Əsgərovun bir neçə Avropa ölkəsində çox sayda şirkətlərə sahib olduğu deyilirdi.***

Ləğv edilmiş Nəqliyyat Nazirliyində Ziya Məmmədovdan sonra faktiki şəkildə ikinci şəxs sayılmış eks-müavinin həmin şirkətləri ilə bağlı yeni iddialar kifayət qədər ilgincdir. Bu iddialardan belə aydın olur ki, Əsgərovun Avropadakı biznesində son durum heç də ürəkaçan deyil. Məsələn, sabiq nazir müavini hələ Azərbaycan Dövlət Dəmir



Yolu idarəsinin rəisi olarkən Slovakiyada onun oğlunun adına ELUREL TRANS S.R.O. şirkəti qeydiyyatdan keçirilib. Şirkətin nizamnamə kapitalı Slovakiyanın o zamankı pulu ilə 200 min kron (6639 avro) təşkil edib. Nizamnaməyə görə, logistika, topdan və pərakəndə ticarətlə məşğul olan ELUREL TRANS S.R.O. 2017-ci ilin əvvəlində Nəqliyyat Nazirliyi ləğv edildikdən, Arif Əsgərov da nazir müavini postunu itirdikdən sonra "əl dəyişdirib".

Şirkət başqalarının adına keçirilib. Lakin eks-müavinin oğulları (Elnar və Ürfan Əsgərovlar) 2018-ci ilin ilk yarısından bu şirkətin yenidən faktiki şəkildə sahibinə çevriliblər. Lakin hazırda ELUREL TRANS S.R.O.-nun tam fəaliyyətsiz vəziyyətə düşdüyü iddia edilir. Yeri gəlmişkən, A.Əsgərovun oğullarından E.Əsgərov (1985-ci il təvəllüdlüdür) hələ 20 yaşında ali təhsil üçün getdiyi ingiltərədə də şirkət açıbmış. 2005-ci ildə yaradılan və TYROLESE (579) LIMITED adlanan həmin şirkət Londonda qeydiyyatdan keçirilmişdi. iddialar görə, sabiq nazir müavini 2011-ci ilədək həmin şirkət vasitəsilə Azərbaycan üzərindən yükdaşımalardan böyük pullar əldə edib. Lakin son bir-iki ildə bu TYROLESE (579) LIMITED-in fəaliyyəti ilə bağlı da hər hansı məlumat yoxdur, hətta onun bağlandığı deyilir. Əsgərovların Londondakı başqa bir şirkəti isə AZTECSA LIMITED adlanırdı. Maraqlıdır ki, A.Əsgərovun digər oğlu, Kembric Universitetində beynəlxalq əlaqələr üzrə magistr təhsili almış Azər Əsgərova məxsus həmin şirkət də atası nazir müavini postunu itirdikdən cəmi bir neçə il sonra, 2017-ci ilin sentyabrında ləğv edilib. Ümumiyyətlə isə Arif Əsgərovun nəhəng ailə biznesində sürətli çöküş onun işsiz qalmasından sonra başlayıb. "O, Azərbaycan Dövlət Dəmir Yolu idarəsinin rəisi postuna təyin edildikdən qısa müddət sonra sürətlə varlanmağa başlayıb. Xüsusilə ölkə xaricində şirkətlər açmağa başlayıb. Təəccüblü deyil ki, bu proses Arif Əsgərov barədə yerli mediada böyük məbləğlərlə ifadə olunan korrupsiya iddiaları ilə müşayiət olunub. Yəni, o, rəhbərlik etdiyi qurumdakı yeyintilər, mənimsəmələr hesabına böyük sərvət sahibinə çevrilib. Eyni proses Arif Əsgərovun nazir müavini təyin edilməsindən sonra kulminasiya nöqtəsinə çatıb. Lakin həmin postu itirməsinin ardından onun ailə biznesində eniş dövrü start götürüb, 2020-ci illərin əvvəllərindən bu çöküş daha da sürətlənib. Hazırda sabiq nazir müavininin "biznes imperiyası" əvvəlki qüdrətindən çox uzaqdır" deyə mənbələr vurğulayırlar. Arif Əsgərovun oğullarının hələ də daha çox xaricdə yaşadığını deyən mənbələr buna baxmayaraq onların açdığı şirkətlərin böyük ölçüdə fəaliyyətsiz olduqlarına diqqət çəkirlər. Bu da səbəbsiz deyil. Azərbaycan təcrübəsində bir çox iri məmurların vəzifələrini itirdikdən sonra bizneslərinin batmağa başlaması məlumdur. Səbəb sadədir: onlar yüksək post tutarkən həm əllərindəki təsir imkanları, rıçaqlar, həm də korrupsiya ilə qazanılmış böyük vəsaitlər hesabına ölkə daxilində və xaricində ailə üzvlərinin, yaxınlarının adına şirkətlər təsis edir, geniş biznes şəbəkəsi qururlar. Lakin vəzifə əldən gedib "dəyirmanın suyu qurududan" sonra həmin biznes şəbəkəsi tədricən sıradan çıxır. Axı əldəki təsir imkanları, rıçaqlar və korrupsiya pulları artıq yoxdur! Belə görünür, eyni təcrübə Arif Əsgərovdan da yan keçməyib. Onu da deyək ki, sabiq nazir müavini xaricdəki biznesi və haqqındakı mənimsəmə iddiaları ilə bağlı indiyədək hər hansı açıqlama verməyib. O həmin iddiaları təsdiqləməsə belə, təkzib də etməyib. Bundan başqa eksmüavin və oğulları məhkəmələrədək uzanan qalmaqallarla da yadda qalıblar. Xatırladaq ki, 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" QSC-yə rəhbərlik edən A.Əsgərov 2015-2017-ci illərdə isə nəqliyyat nazirinin müavini postunu tutub.

***Sənan Mirzə***

## 5.3.4. İctimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın dövlət-ictimaiyyət həmrəyliyi modeli

## Arzu Nağıyev: "İctimai və dövlət maraqları hər bir cəmiyyət üçün mühüm əhəmiyyət daşıyır"



***Dövlət maraqları bütün maraqlardan üstün tutulan cəmiyyətlərdə dövlətçiliyə və onun təhlükəsizliyinə təhdid halları az-az baş verir. Belə müdaxilələrin qarşısı dərhal cəmiyyətin sərt reaksiyası ilə alınır. Ona görə də, dövlət maraqlarının müdafiəsi hər bir cəmiyyətin başlıca məqsədlərindən sayılır. Bəzən dövlət maraqları ilə ictimai maraqlar toqquşsa da, nə dövləti cəmiyyətdən, nədəki, cəmiyyəti bir-birindən ayrı təsəvvür etmək mümkündür. Çünki, cəmiyyət və dövlət bir-birindən qırılmaz tellərlə bağlıdır. Onlardan birinin olmaması digərinin tədricən yox olmasına yol açır. Odur ki, dövlət və ictimai maraqların qorunduğu cəmiyyətlərdə sabitlik, əmin-amanlıq olur, milli maraqların qorunması ön planda olur.***

Millət vəkili Arzu Nağıyev "Unikal"a açıqlamasında bildirib ki, kimliyindən, hansı vəzifə tutmağından asılı olmayaraq, hər bir vətəndaşın Azərbaycan reallıqlarını, Azərbaycan həqiqətlərini, Azərbaycanın haqq səsini, eləcə də Azərbaycanın maraqlarını qorumağı özünə vətəndaş borcu hesab etməlidir. Bu istiqamətdə öz töhfələrini verməlidir. Deputat deyir ki, bu mənada ən böyük məsuliyyət ictimai institutların, vətəndaş cəmiyyəti fəallarının üzərinə düşür. "Cənab prezident də dəfələrlə öz çıxışlarında bildirib ki, bütün problemlərin həllində ictimai nəzarət vacib amildir. İctimaiyyətin fikirləri dövlət qurumlarında qərarların verilməsi zamanı nəzərə alınmalıdır. Bunu isə ən yaxşı çatdıran QHT-lərdir". Deputat bildirib ki, Qarabağda ekoloji aksiyada QHT-lərin fəallığı böyük rol oynadı. QHT-lərin fəallığı nəticəsində ekoloji təhlükənin qarşısı alındı. A.

Nağıyev onu da qeyd edib ki, dövlət qurumlarında ictimai şuraların yaradılması vacibdir. Azərbaycan artıq bu istiqamətdə vacib addımlar atır. Millət vəkili bildirib ki, QHT-lərin verdikləri bəyanatlar dövlətçiliyin müdafiəsi üçün mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, diaspor və QHT-lərin fəaliyyəti təqdirəlayiqdir. Diaspor təşkilatları, QHT-lər Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında daim fəallıq nümayiş etdirməlidirlər. Bu təşkilatların sayəsində dünya Ermənistanın, Azərbaycanı istəməyən qüvvələrin Qarabağla bağlı beynəlxalq müstəvidə səsləndirdikləri fikirlərin yalan olduğunu öyrənməlidir. Deputat bildirib ki, ölkəmizdə kifayət qədər uğurlu işlər görülür, bunlar göz önündədir. Onun sözlərinə görə, diaspor təşkilatları, diplomatik korpus nümayəndəlikləri əməkdaşlarının və bütövlükdə medianın gücü sayəsində Azərbaycanın ədalətli mövqeyi, haqq işinin beynəlxalq təşkilatlara çatdırılması davamlı və sistemli şəkildə aparılmalıdır. O, bununla bağlı hər bir vətəndaşın üzərində məsuliyyətin olduğunu söyləyib. Deputat qeyd edib ki, Azərbaycanda dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdəti ümummilli lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasına əsaslanır. Ulu öndərin irəli sürdüyü bu konsept dövlət, cəmiyyət maraqları və fərdin mənəvi maraqlarının vəhdəti kimi bütün azərbaycanlıları birləşdirən zəruri, güclü bir zəmin rolunu oynayır. Həmsöhbətimiz əlavə edib ki, 44 günlük Vətən müharibəsində xalq, lider, dövlət və ordu birliyinin şahidi olduq. Hər bir Azərbaycan vətəndaşı dövlətin yanında oldu. Hətta müxtəlif fikirlərdə olan siyasi partiya rəhbərləri və təmsilçiləri də ümummilli məsələlərdə birlik nümayiş etdirərək dövlət maraqlarının müdafiəsi prizmasından çıxış etdi. Onun sözlərinə görə, ictimai və dövlət maraqları hər bir cəmiyyət üçün mühüm əhəmiyyət daşıyır. Ona görə də, bu maraqların qorunması əsas vəzifələrdən biri olmalıdır. Hansı ki, bu birlik sayəsində Azərbaycan ordusu Qarabağda haqq savaşında qələbə qazandı. Siyasi, dini baxışından asılı olmayaraq hər kəs Ali Baş Komandanın ətrafında sıx birləşdi. Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin uğurla yürütdüyü dövlət siyasətində milli-mənəvi dəyərlərin qorunması əsas yerlərdən birini tutur. Müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Prezident ilham Əliyev hər zaman çıxışlarında gənclərə Vətənə bağlılığın, sevginin, dövlət maraqlarının hər şeydən üstün olduğunu bir daha vurğulayıb. Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edir. Dövlətimizin maraqlarına zidd olan, onun təhlükəsizliyini pozmağa yönələn, müstəqilliyinə qəsd etmək istəyən qüvvələrə qarşı Azərbaycan xalqı, ictimaiyyəti hər zaman mübarizə aparıb, bundan sonra da aparacaq!

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Ordubadda ziyalılarla görüş keçirildi

***Ordubad Rayon İcra Hakimiyyətinin başçısı bir qrup rayon ziyalısı ilə görüş keçirib.***

"Unikal" xəbər verir ki, görüşdə İcra Hakimiyyəti başçısının müavini, Yeni Azərbaycan Partiyası Ordubad rayon təşkilatının sədri və rayonun 50 nəfər ziyalısı iştirak edib.

Görüşü giriş nitqi ilə açan İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda bütün sahələrdə qazanılan nailiyyətlərdən, ölkəmizdə qısamüddətli və uzunmüddətli proqramlar əsasında həyata keçiriləcək layihələrdən, Naxçıvanda məmurlarla vətəndaşlar arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi istiqamətində muxtar respublikada formalaşdırılan Səlahiyyətli Nümayəndəlik institutundan, eləcə də, Naxçıvan Muxtar Respublikası və Ordubad rayonunun sosial-iqtisadi, mədəni həyatında baş verən dinamik inkişafdan danışdı. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə vətəndaşların məlumatlandırılması prosesində rayon ziyalılarının fəal iştirakının zərurliyini qeyd edən Rəcəb Rəhimli müvafiq Dövlət Proqramı haqqında ətraflı məlumat verdi. Cənab Prezidentin müəyyən etdiyi proqramın məqsədinin Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikasının işğaldan azad olunan bölgələri daxil digər bölgələrlə inteqrasiyasını təmin etmək , eyni zamanda ölkənin inkişafını kompleks şəkildə həyata keçirmək , bütün ərazi vahidləri üzrə inkişaf meyarlarını ortaya qoymaqdan ibarət olduğunu qeyd etdi. İcra Hakimiyyətinin başçısı rayonun gələcək inkişaf perspektivləri barədə, həmçinin, bölgəmizdə həyata keçiriləcək sosial-iqtisadi proqramlar, innovativ inkişafa dair proqram layihələri haqqında ətraflı məlumat verdi. Həmçinin, Muxtar Respublikada kadr potensialının təkmilləşdirilməsi, onların formalaşdırılması, gələcək prioritetlərə uyğunlaşdırılması sahəsində ziyalıların böyük rol oynaya biləcəklərini vurğuladı. İcra Hakimiyyətinin başçısı hər bir ziyalını ictimai-siyasi həyatda daha da fəal olmağa, cəmiyyətin inkişafında bilik, bacarıq və səmərəli fəaliyyəti ilə yaxından iştirak etməyə dəvət etdi.

Görüşdə rayon ziyalılarından "Tərrəqqi" medalı ilə təltif olunmuş Əli Qənbərov, Azərbaycan Respublikasının əməkdar müəllimi Səkinə Tağıyeva, Naxçıvan Muxtar Respublikası Veteranlar şurasının Ordubad rayon təşkilatının sədri Fərrux Nağızadə, Azərbaycan Respublikasının əməkdar müəllimi, təqaüdçü Firdovsi Mehdiyev, Fizika elmləri üzrə fəlsəfə doktoru Mirhəsən Seyidov, Naxçıvan Muxtar Respublikasının əməkdar təqaüdçü müəllimi Firuzə Əsgərova, Naxçıvan Muxtar Respublikasının əməkdar təqaüdçü müəllimi Nərgiz Həsənəliyeva, I Qarabağ müharibəsi əlili, Qarabağ müharibəsi veteranları və şəhid ailələri ictimai birliyinin sədri Raqib Baxşıyev və rayonun müxtəlif peşə sahələri üzrə xidmətləri olmuş ziyalılardan Əfrayə Tağıyeva, Rasim Bədəlov, Samiddin Musayev, Abbas Tağıyev, Ağa Sadiqov, Südeyf Hacıyev, Zahid Sadıqlı tərəfindən rayonun gələcək potensial sosial-iqtisadi inkişafı ilə bağlı proqramın həyata keçirilməsi, xüsusən də gənclərin bu proqramların əsas əmək resursu sayılması, onların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə gənclər evlərinin yaradılması sahəsində, o cümlədən, rayonun inkişafına istiqamətlənmiş təkliflər İcra Hakimiyyəti başçısına verildi, bu sahədə müzakirələr aparıldı. Ziyalılar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasəti tamamilə dəstəklədiklərini, sosial- iqtisadi inkişaf sahəsində qazanılan uğurlarla qürur duyduqlarını ifadə etdi və ölkədə elmin, təhsilin, səhiyyə və mədəniyyətin inkişafı ilə bağlı görülən işlərə, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəsinin rəhbərliyi ilə həyata keçirilən quruculuq-abadlıq işlərinə və əhalini narahat edən çoxillik məsələlərin həlli istiqamətində göstərilən diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildirdilər.

Ziyalıların rayonun inkişaf təminatını intensivləşdirəcək təklif və müraciətlərini dinləyən Rəcəb Rəhimli onların həlli ilə bağlı aidiyyəti məsul şəxslərə müvafiq tapşırıqlar verdi.



# Daşaltı şəhidi 31 ildən sonra dəfn olundu

***Daşaltı şəhidi Araz Rüstəmovun meyitinin qalıqları Xızı rayonunun Giləzi qəsəbəsində dəfn olunub.***

"Unikal" xəbər verir ki, şəhidlə vaxtilə yaşadığı evdə vida mərasimi keçirilib.

Mərasimdə şəhidin ailə üzvləri, yaxınları, rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının əməkdaşları, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Daha sonra A.Rüstəmovun cənazəsi yaylım atəşi və Dövlət Himninin sədaları altında Giləzi qəsəbəsinin Şəhidlər xiyabanında torpağa tapşırılıb.

# Neft yatağında təmir işləri aparan iki nəfər öldü

***Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azneft" İstehsalat Birliyinin N.Nərimanov adına Neft və Qazçıxarma İdarəsinin (NQÇİ) iki əməkdaşı beton plitələrin çökməsi nəticəsində dənizə düşüblər.***

"Unikal" xəbər verir ki, bu barədə "Azneft"dən bildirilib. Bildirilib ki, NQÇİ-nin birinci mədən ərazisində neft yığım məntəqəsində qəzalı sahədə planlı təmir işləri aparan "Neftqaztikinti" trestinin əməkdaşları 1960-cı il təvəllüdlü, quraşdırıcı vəzifəsində çalışan Ağaməmmədov Şirvan Ataş oğlu və 1984-cü il təvəllüdlü, qaynaqçı vəzifəsində çalışan Nərimanov Şamo Mətləb oğlu beton plitələrin çökməsi nəticəsində dənizə düşüblər.

"Azneft"dən bildirilib ki, aparılan axtarış-xilasetmə işləri nəticəsində hər iki şəxsin nəşi dənizdən çıxarılıb: "Hadisə nəticəsində həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk".

# Xocalıda traktor minaya düşdü - Xəsarət alan var

***Xocalı rayonunun işğaldan azad edilmiş ərazisində traktorun minaya düşməsi faktı ilə bağlı araşdırma aparılır.***

Baş Prokurorluğun Mətbuat xidmətindən "Unikal"ın sorğusuna cavab olaraq bildirilib ki, avqustun 24-ü Xocalı rayonunun işğaldan azad edilmiş Sığnaq kəndi ərazisində təsərrüfat işləri aparan zaman traktorun tank əleyhinə minaya düşməsi nəticəsində 1987-ci il təvəllüdlü Əfqan Ələkbərlinin xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib digər zəruri istintaq hərəkətləri aparılıb.

Hazırda faktla bağlı Xocalı rayon prokurorluğunda araşdırma aparılır.

# Dövlət Su Ehtiyatları Agentliyində təqdimat keçirildi

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyində "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair Tədbirlər Planı" çərçivəsində layihələrin təqdimat keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair Tədbirlər Planı" çərçivəsində, texniki-iqtisadi əsaslandırması hazırlanan və Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2020-ci il tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılan Komissiyanın iclaslarında uyğun layihə həlləri seçilən dörd suvarma kanalı və bir drenaj kollektoru obyektlərinin işçi layihələrinin 14-18 avqust tarixlərində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyində təqdimatı keçirilib:

- "Türyançay sağ sahil kanalının yenidən qurulmasının texniki-iqtisadi əsaslandırılmasının və layihə sənədlərinin hazırlanması" (I mərhələ);
- "Türyançay sol sahil kanalının yenidən qurulmasının texniki-iqtisadi əsaslandırılmasının və layihə sənədlərinin hazırlanması" (I mərhələ);
- "ÇTZ kanalının yenidən qurulmasının texniki-iqtisadi əsaslandırılmasının



və layihə sənədlərinin hazırlanması" (I mərhələ);
- "Mil-Qarabağ kollektorunun yenidən qurulmasının texniki-iqtisadi əsaslandırılmasının (TİƏ) və Layihə sənədlərinin hazırlanması";
- "Köhnə Xanqızı və P-0 kanallarının yenidən qurulmasının texniki-iqtisadi əsaslandırmasının və layihə sənədlərinin hazırlanması".

Meliorasiya sahəsinin mütəxəssislərinin iştirak etdiyi həmin təqdimatda, ölkəmizin kənd təsərrüfatının inkişafına önəmli töhvə verəcək yeni inşa ediləcək və yenidən qurulacaq meliorasiya obyektləri sırasında yer alan bu obyektlərin yenidənqurmadan sonra qazanacaqları üstünlüklər barədə geniş ictimayyətə məlumat verilməsinin vacibliyi vurğulanmışdır. Eyni zamanda, yeni inşa edilən və yenidən qurulan meliorasiya və irriqasiya obyektlərinin birinci növbədə yeni suvarma texnologiyalarının tədbiqi üçün geniş imkanların əldə edilməsi, su itkilərinin əhəmiyyətli dərəcədə azaldılması, elektron sistemlərin tədbiqi nəticəsində suvarma suyunun dəqiq uçotunun aparılması və sair aspektlər üzrə müasir standartların tələblərinə cavab verməleri vacib olması qeyd edilib.

Daha sonra, layihə həlləri ilə yaxından tanış olan layihə, tikinti və istismar şöbələrinin mütəxəssiləri, onları maraqlandıran məsələlər üzrə sualları layihə müəlliflərinə ünvanlayıblar. Məhsuldar müzakirələr nəticəsində, mütəxəssislərin əksər rəy və təklifləri layihə müəllifləri tərəfindən nəzərə alınıb və layihələndirmə işlərinin yekun mərhələsinə keçidi məqsədəuyğun hesab edilib.

***Hüseyn***

# "Güclü qadın güclü cəmiyyətin təməlidir" - Gülər Mübariz

***"Qadın zərif olması ilə bərabər, yeri gəldiyində haqsızlıqlara boyun əyməyən, cəsur və dözümlü bir yaradılışa da sahibdir. Qadın ailədən başlayaraq cəmiyyətin bütün mərtəbələrinin daşıyıcı ünsürü, nəsillər yetişdirən anası və öyrətməni, iş həyatının önəmli faktoru sayılır. Bir insan olaraq həyatımızın hər dönəmini fərqli rollarla bəzəyən qadınlarımızın ləyaqətini, hörmətini qorumaq və layiq olduğu dəyəri vermək sağlam cəmiyyətin təməlidir. Qadınlarına dəyər verməyən, haqqını əsirgəyən, əməyini görməyən ailə qarşısıalınmaz fəlakətlərə və yaralara məruz qalar".***

"Unikal" xəbər verir ki, bunu ekspert-yazar Gülər Mübariz deyib. "Bir toplumun mədəniyyətinin ölçüsü onun qadına olan baxış bucağı ilə ölçülür. Ta qədimdən bu yana hökm sürən qadına olan xorgörmə, torpağa diri-diri basdırılan qız övladlarının baisi olan cahilliyi yıxan, qadını baş tacı edən, "Cənnət anaların ayaqları altındadır" deyərək qadınları ucaldan cəmiyyət formalaşmaqdadır. Bu düşüncə ilə tarixdə adını yazdıran bir çox şəxsiyyətlərimizin bugünkü günümüzə çox əməyi keçib.

1901-ci il oktyabrın 7-də görkəmli şəxsiyyət, xeyriyyəçi Zeynalabdin Tağıyevin təşəbbüsü və bir neçə il davam edən səyləri nəticəsində Bakıda müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi fəaliyyətə başladı. "Cəmaat, qızlarımızın zəmanə dərsi oxumaları vacibdir" deyən H.Z.Tağıyevin min bir əziyyət bahasına açdırdığı qızlar məktəbi 20-ci əsr müsəlman Şərq təhsil tarixində həm çevrilişə, həm də qızlarımızın hüquqlarının qorunmağı və irəliləməyi üçün böyük bir addım oldu.

Zaman-zaman dahi şairlərimiz qadına olan sonsuz sayğı və göstərdiyi diqqət ilə qələmə aldıqları ədəbiyyat incilərimiz qadının yoluna işıq, qəlbinə ümid oldu. "Qadın gülərsə, şu issız mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək!" deyirdi Hüseyn Cavid.

Bu amalla vuruşan və qadınları əsarət altından xilas etməyə çalışan maarifçilərimizlə yanaşı, çox təəssüf ki, hələ də cahilliyin əsiri olan kütlə də var. Bu kütlə var olduqca milli-mənəvi dəyərlərimiz ayaq altına alınmaqla yanaşı, gələcəyimizi şübhə altına salacaq hadisələr cərəyan etməkdədir.

Qadın və kişi həyatın bərabər qurucusudur; qarşılıqlı hüququn yaratdığı məsuliyyəti daşıyan hər kəs bu bərabərliyin var olduğunu dərk etməlidir. Qadın-kişi arasında olan bərabərliyi anlamayan, hüququ pozan, ədaləti yox sayan, onları şəxsiyyətindən, daha sonra sosial vəzifəsindən uzaq tutan hər bir kəlmə, hər bir əməl bərpası mümkün olmayan həyat faciələrinə gətirib çıxaracaq. Qadın hüquqlarının var olduğunu unutdurmağa çalışanlar və bunu fərqli, kinayəli bir dillə xalqa sırımağa cəhd edənlər bu girdabda ilk öncə özlərinin boğulacaqlarını bir bilsələr. Qazdıqları quyunun uçurumuna ilk özlərinin yuvarlanacağını dərk etsələr, əməlindən tövbə edərlərmi? Aşağı zehniyyətin, bəsit düşüncənin, cahilliyin məhsulu olan bu əməlləri törədənlər, törətdiyiniz yanğının birinci qurbanı özünüz olacaqsınız.

Günü-gündən artan qadına zorakılıqla cəmiyyətimizin məhvinə səbəb olmaq istədiklərinin fərqinə belə varmadan bədbəxt qadından bədbəxt ana, bədbəxt anadan bədbəxt uşaq yaradırlar. İnsana dəyər qatan, mənəvi dəyərlərimizi qoruyub ucaldan bir gələcək üçün ancaq əmək verən qadının haqqını alması - ailənin ayaqda durması və toplumun rifahı deməkdir. Qadınların iş və ailə həyatı arasında qal-



madan, çalışan və övlad yetişdirən bir fərd olmaqları, qadın rollarından birini digərinə fəda etmədən həyatlarına davam etməkləri təmin olunmalıdır. Güclü qadın, güclü ailəni, güclü ailə isə güclü cəmiyyətin təməlini yaradır.

Niyə bu mövzuya dəfələrlə toxunursan desəniz, bunun cavabı çarəsiz qadınların harayıdır. Qadın yaşadığının məhsuludur; dəyərini alsa, çiçək açar, xoşbəxt qadından xoşbəxt ailə yaradıcısı olar. Dəyərini almayan, şiddət görən, zorakılığa məruz qalan qadından müqəddəslik gözləməyin, ideallıq axtarmayın, psixoloji durumu yerində olmayan qadın həyatda heç bir rolunu düzgün yerinə yetirə bilməyəcək. Bu mövzunun aktuallığı, gündəmdə olmağı hələ də bu problemlərin var olmağından xəbər verir. Bu səbəbdən də bu qavramanı cəmiyyətimizin hər bir üzvü dərk etməlidir; gələcəyimiz naminə çalışan, vətənə igid oğullar tərbiyə edən, iş həyatında bəlli töhfələri olan və ya ola biləcək qadınlarımıza layiq olduğu dəyərin verilməsi bir günün deyil, hər günün mövzusu olmalıdır", - deyə o bildirib.

# İsmayıllıda meliorativ tədbirlər görülür

***İsmayıllıda selə qarşı mübarizə tədbirləri aparılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, İsmayıllı Suvarma Sistemləri İdarəsi tərəfindən yaşayış məntəqələrinin sel sularından mühafizəsini təşkil etmək üçün bir sıra tədbirlər görülür.***

Hazırda rayon ərazisindən axan əksər çaylarda məcra təmizləmə işləri aparılır. Bu il bir-neçə dəfə yağan güclü yağış nəticəsində gələn sel suları xeyli daş-çınqıl gətirərək çay məcrasını doldurub. Çayın məcrasının təmizlənməsi nəticəsində yaxınlıqda olan yaşayış məntəqələri və əkin sahələri sel sularından mühafizə olunub.

2023- cü ildə suvarmanı mütəşəkkil həyata keçirmək üçün İsmayıllı Suvarma Sistemləri İdarəsi tərəfindən



134 min m3 suvarma kanallarının lildən təmizlənməsi və 221 min m3 çay yatağının təmizlənməsi işləri həyata keçirilib, beton kanallarda 1.5 km cari təmir işləri görülüb. Bundan başqa 11 ədəd hidrometrik post və 10 ədəd subartezian quyuları cari təmir olunub. Su itkisinin qarşısının alınması üçün isə hər il torpaq məcralı kanallar beton üzlüyə alınır.

Hazırda İsmayıllı rayonunda suvarma mövsümü uğurla aparılır. Artıq taxıl suvarılaraq biçini yekunlaşıb. Digər kənd təsərrüfatı bitkiləri, o cümlədən meyvə bağlarının suvarılması isə davam edir. Fermerlər sahələrini suvarmaq üçün suvarma suyu ilə vaxtında təmin olunduqlarını bildirirlər.

Qeyd edək ki, İsmayıllı Suvarma Sistemləri İdarəsi rayonda 9000 hektara yaxın suvarılan torpaq sahəsinə xidmət edir. Bu sahələrin suvarılması Aşıqbayramlı su anbarı, Yuxarı Şirvan kanalı, Göyçay çay, Axox çay, Cülyan çay, Talıstan çay, Əyriçay və Girdiman çay vasitəsilə həyata keçirilir.

***Hüseyn***

# Tarix yazan Vətən sevdalısı

***44 gün davam edən İkinci Qarabağ müharibəsində adları tarixə yazılan igidlər sırasında İbrahim Lələyev də vardır. Vətən, xalq yolunda şirin canını fəda etməklə şərəfli ölümü ona əbədilik qazandıran bu, şəhidimiz 1996-cı il avqustun 25-də Masallı rayonu, Hişkədərə kəndində dünyaya göz açıb. Doğma Azərbaycanına olan ilahi sevgisi onu milyonların qürur yerinə, iftixar mənbəyinə çevirib. İndi özü həyatda olmasa da, örnək ömrü xalqına əbədiyyət üfüqündə doğan Günəş kimidir.***

Vətən sevgisi qəlbinə hakim kəsilən İbrahim Həzrətqulu oğlu Lələyev orta məktəbi bitirib 2015-ci ildə ordu sıralarına yola düşür. Ən böyük arzusu da Vətənini göz-bəbəyi kimi qorumaq, məqamı gələndə əsir düşən Qarabağın azadlığı naminə əlinə silah alıb döyüş meydanında erməni daşnakları əzmək olur. Xidmət boyunca bütün təlimlərdə fərqlənir, cəsur, vətənpərvər oğul olaraq əsgərlərin, komandirlərin dərin hörmətini qazanır.

İgid əsgər İbrahim Lələyev 2016-ci ilin Aprel döyüşlərində cəbhənin ən qaynar nöqtələrində düşmənə, sözün əsl mənasında qan uddurur. Yağını məğlub edib Lələ təpədə Azərbaycanın qələbə bayrağını ucaldan qeyrətli oğlanlardan biri də İbrahim olur. Bu, möhtəşəm zəfərdən sonra gözəl Qarabağın tezliklə azadlığına ürəkdən inanır. Və necə olursa-olsun doğma Vətən torpaqların bir qarışı erməni dığaların tapdağına çevrilməməsindən ötrü bütün qüvvəsini, hətta canını qurban verməyə hazır durur.

Nəhayət, Vətən sevdalısı İbrahim Lələyev 2020-ci il sentyabrın 27-də başlanan haqq savaşımızda istəyinə çatır. Belə ki, o, könüllü olaraq şüurlu surətdə 30 ilə yaxın Ermənistan işğalı altında olan bizə məxsus ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün müharibə meydanına girir. " Şəhid qanı axmayan torpaqdan Vətən olmaz" deyib düşmənlə son damla qanınadək döyüşməyinə and içir.

Vətəni canından əziz tutmaqla neçə-neçə döyüşdən zəfərlə çıxır. Füzulinin azadlığı uğrunda ölüm-di-



rim savaşında misilsiz şücaət göstərir. 2020-ci il oktyabrın 11-də canını fəda etməklə ölməzliyə qovuşur. İbrahim Lələyev doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılır.

Azərbaycan xalqının tarixinə qeyrət, hünər, şərəf səhifəsi kimi yazılan Vətən müharibəsinin qalib şəhidi milyonların ürəyinə köçməklə bərabər, həm də "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin və Cəbrayılın azadlığı uğrunda medallara layiq görülür.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Qanunsuz fəaliyyət göstərən kömür quyuları aşkarlandı

***Oğuz Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər zamanı rayonun Muxas kəndi ərazisində qanunsuz yolla ağac kömürü istehsal edən quyular aşkarlanıb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupundan məlumat verilib.

Bildirilib ki, araşdırma zamanı qanunsuz kömür istehsal edən şəxslərin kənd sakinləri - Bəhrul Cumayev və Rəşad Əhmədov olduqları müəyyən edilib.

Onların barəsində İnzibati Xətalar Məcəlləsinin 275.1.1-ci (dövlət ekoloji ekspertizasının müsbət rəyi olmadan ətraf mühitə bilavasitə və ya dolayı yolla mənfi təsir göstərən, habelə dövlət ekoloji ekspertizasının rəyi ilə ekoloji təhlükəsi müəyyən edilən təsərrüfat və ya sair fəaliyyətin həyata keçirilməsinə) maddəsi ilə protokol tərtib edilərək aidiyyəti üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin regional idarəsinə göndərilib. Kömür quyularının isə üzəri torpaqla örtülərək fəaliyyəti dayandırılıb.





# Ucarda nəqliyyat və rabitənin inkişaf rəqəmləri

***2023-cü ilin yanvar-iyun aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən əhaliyə 2031,2 min manatlıq xidmət göstərilmiş və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 13,6 faiz az olub.***

Avtomobil nəqliyyatı ilə 2023-cü ilin yanvar-iyun aylarında 2729 min nəfər sərnişin, 659 min ton yük daşınmış və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə sərnişin dövriyyəsi 2,5 faiz, yük dövriyyəsi 5,6 faiz artıb.

2023-cü ilin yanvar-iyun aylarında nəqliyyat sektorunda məhsul buraxılışı (fiziki şəxslər üzrə cəmi) 1736,3 min manat olmuşdur. O cümlədən məhsul buraxılışı yük daşınması üzrə 213,5 min manat, sərnişin daşınması üzrə isə 1522,8 min manat təşkil edib. 2022-ci illə müqayisədə məhsul buraxılışı 2,9 faiz, o cümlədən məhsul buraxılışı sərnişin daşınması üzrə 2,5 faiz, yük daşınması üzrə isə 5,6 faiz çox olub.

2023-cü ilin yanvar-iyun aylarında informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 355,5 min manatlıq xidmət göstərilmiş, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz və ya 16,7 min manat az olub.

***Cəlil Vəliməmmədov,***
***Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi***

# Bələdiyyələrin iqtisadi fəaliyyəti belə olub - Statistika

***Rayonda fəaliyyət göstərən bələdiyyələr tərəfindən 2023-cü ilin yanvar-iyun aylarında 120,5 min manat, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 18,3 min manat və ya 17,9 faiz çox vəsait toplanıb.***

2022-ci ilin yanvar-iyun ayları ilə müqayisədə fiziki şəxslərin torpaq vergisi 17,7 faiz, bələdiyyə əmlakının özgəninkiləşdirilməsindən gəlirlər 3,1 dəfə, digər vergi olmayanlar daxilolmalar 83,3 faiz artmış, fiziki şəxslərdən əmlak vergisi 5,3 faiz, bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən əldə olunan gəlirlər 5,7 faiz azalmış, avtomobillərin dayanacaqları üçün ödənişlər əvvəlki illə müqayisədə eyni olub.

Bələdiyyə üzrə büdcə xərclərinin 75,9 faizi yerli özünüidarəetmə orqanlarının saxlanılmasına, 3,8 faizi sosial-müdafiə və sosial-təminat xərclərinə, 3,6 faizi mənzil-kommunal təsərrüfatı xərclərinə, 16,7 faizi digər xərclərə sərf edilib.

***Emin Qəhrəmanov,***
***Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi***

# Cəmil Məmmədli həbs edildi

***Jurnalist Cəmil Məmmədli həbs edilib.***

"Unikal" xəbər verir ki, bu barədə onun yaxınları məlumat yayıblar.

Bildirilib ki, məhkəmənin qərarı ilə C. Məmmədli barəsində həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, o, xuliqanlıqda ittiham olunurdu.

# Ərdoğan-Putin görüşünün yeri və tarixi açıqlandı



***Soçidə Türkiyə və Rusiya prezidentləri Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin arasında görüş planlaşdırılır.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb.

Türkiyədəki diplomatik mənbə bildirib ki, görüş sentyabrın 4-də baş tuta bilər.

Bundan əvvəl Türkiyə liderinin özü də sentyabrda Putinlə görüşə biləcəyini açıqlamışdı.

# Bayden Ukraynanı Rusiyaya qarşı yeni sanksiyalarla təbrik etdi



***ABŞ prezidenti Co Bayden Ukraynanın Müstəqillik Günündə Rusiyaya qarşı yeni sanksiyalar elan edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ağ Ev bəyanatı yayıb.

"Bu gün biz məcburi köçkünlərə və deportasiyalara görə məsuliyyət daşıyanları məsuliyyətə cəlb etmək və ukraynalı uşaqların ailələrinə qaytarılmasını tələb etmək üçün yeni sanksiyalar elan edirik", - Ağ Evin bəyanatında deyilir.

Sanksiyaların təfərrüatları açıqlanmır.

# Rusiya "Qırmızı Meydan"ı naməlum səbəbdən bağladı



***Moskvanın məşhur "Qırmızı Meydan"ı bu gündən etibarən ictimaiyyət üçün bağlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Tarix Muzeyinin rəsmi "Telegram" kanalında deyilir.

Məhdudiyyətlərin səbəbləri barədə məlumat verilmir. Qeyd edək ki, bir müddət öncə Kremldən keçən tramvay da ləğv edilib.

# Mask "Soros"u məhkəməyə verəcək

***Amerikalı sahibkar və X sosial şəbəkəsinin sahibi İlon Mask söz azadlığını məhdudlaşdırmaq cəhdinə görə maliyyəçi Corc Sorosa məxsus "Açıq Cəmiyyət Fondunu" məhkəməyə vermək niyyətindədir.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, Maskın sözlərinə görə, fond sosial mediada nifrət hissinin artması ilə bağlı dezinformasiyalar yayır.

"Mən prosesin başlamasını səbirsizliklə gözləyirəm", - deyə milyarder X-dəki səhifəsində yazıb.

# Kaliforniyada atışma - Ölənlər və yaralılar var

***Kaliforniya ştatının Trabuko-Kanyo şəhərində atışma olub.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, atışma nəticəsində azı 5 nəfər ölüb, 6 nəfər yaralanıb. İnsident "Kuk's Corner" baykerlər üçün nəzərdə tutulmuş barda keçmiş hüquq-mühafizə orqanı əməkdaşı ilə həyat yoldaşı arasında mübahisə zəminində baş verib.

Hadisə ilə bağlı araşdırma aparılır.

# Türkiyə ordusu şəhid verdi

***Türkiyə ordusu İraqın şimalında keçirdiyi "Pəncə- Kilit" əməliyyatında daha bir şəhid verib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, çavuş Ali Demir terrorçularla gedən döyüşlər zamanı yaralanıb. O, xəstəxanaya yerləşdirilsə də, həyatını xilas etmək mümkün olmayıb.

# "Laçın dəhlizinin birtərəfli qaydada açılması planları hazırlanır" - Paşinyan

***"Laçın dəhlizinin birtərəfli qaydada açılması planları hazırlanır".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan nazirlər kabinetinin bugünkü iclasında deyib.

"Biz mötəbər məlumat almışıq ki, Qarabağdan çıxışa icazə vermək və girişin qarşısını almaq üçün Laçın dəhlizinin birtərəfli qaydada açılması planları hazırlanır. Vəziyyətdə yeganə dəyişiklik odur ki, Qızıl Xaç və Rusiya sülhməramlı qoşunları vasitəsilə Laçın dəhlizi ilə müalicəyə ehtiyacı olanların və digər vətəndaşların müəyyən hərəkəti həyata keçirilir", - deyə Ermənistan rəhbəri vurğulayıb.

Ermənistan rəhbəri deyib ki, Ermənistan Azərbaycanla sülh müqaviləsinin yeni təkliflərini Azərbaycan tərəfinə çatdırıb.



"Mən Ermənistan Respublikasının sülh gündəliyinə sadiqliyini vurğulamaq istəyirəm. Sizə bildirməliyəm ki, bəli, biz Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin yeni təkliflərini Azərbaycan tərəfinə göndərmişik", - deyə baş nazir qeyd edib.

Paşinyan sülh müqaviləsinin yeni təklifləri ilə bağlı digər təfərrüatları açıqlamayıb.

# Rusiya səfirliyinin müşaviri olmuş şəxs Ermənistana buraxılmadı

***Rusiyanın Ermənistanla Dostluq və Əməkdaşlıq Cəmiyyətinin rəhbəri Viktor Krivopuskov İrəvanın Zvartnots hava limanından ölkəyə buraxılmayıb.***

"Unikal" xəbər verir ki, bu



barədə "Sputnik Ermənistan" məlumat yayıb. Məlumata görə, Krivopuskovun adı Ermənistanda arzuolunmaz şəxslərin siyahısında olub. O, həmçinin Rusiya Federasiyasının Ermənistandakı səfirliyinin müşaviri olub.

# Priqojinin meyiti rəsmən müəyyən edilib

***Meyiti tibbi ekspertizaya aparılan Yevgeni Priqojinin kimliyi rəsmən müəyyən edilib.***

"Unikal" xəbər verir ki, bu barədə "Biz Rusiya iləyik" hərəkatının sədri Vladimir Roqov Teleqram kanalında məlumat verib.

"Yevgeni Priqojinin meyiti rəsmi olaraq morqda tanınıb", - deyə Roqov yazıb. O bildirib ki, Priqojinin meyitinin tanınması zamanı barmağının birinin olmaması da əsas əlamətlərdən biri kimi götürülüb. Roqovun sözlərinə görə, morqda Dmitri Utkin də döymələri ilə tanınıb.



# "Təyyarə qəzasının Ukrayna ilə heç bir əlaqəsi yoxdur" - Zelenski

***Ukrayna prezidenti Volodimir Zelenski Rusiyada baş verən təyyarə qəzasına reaksiya verib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna lideri sosial şəbəkə hesabında bildirib.

O, qeyd edib ki, göyərtəsində "Vaqner" özəl hərbi şirkətinin rəhbəri Yevgeni Priqojin olan



təyyarənin qəzaya uğramasının Ukrayna ilə heç bir əlaqəsi yoxdur: "Ukrayna dünya ölkələrinə təyyarələrlə bağlı müraciət edəndə biz bunu nəzərdə tutmamışdıq. Bizim fikrimizdə tamamilə fərqli bir şey var idi və biz dəstək istəyirdik, baxmayaraq ki, bu, sözün müəyyən mənasında kömək edəcək".

# BRİKS təşkilatı ikiqat genişlənir - İran da qoşulacaq

***Cənubi Afrikada keçiriləcək BRİKS sammitinə daha beş ölkə qoşulacaq.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb. Məlumata görə, yeni qoşulacaq ölkələr bunlardır: Argentina, İran, Səudiyyə Ərəbistanı, Misir və BƏƏ. Bildirilir ki, qrupun yeni üzvləri seçilərkən G20-yə üzvlük, eləcə də namizəd ölkələrin qitələr üzrə bərabər coğrafi bölgüsü nəzərə alınıb. Balans üçün artıq adları çəkilən beş dövlətə bir Afrika ölkəsini də əlavə etmək olar. Qeyd edək ki, bundan öncə təşkilatın genişlənməsi barədə qərar təsdiqlənmişdi.

# AFFA 5 klubu cəzalandırdı



AFFA İntizam Komitəsinin (İK) qərarları açıqlanıb.

"Unikal" milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, İK Azərbaycan Premyer Liqasının III turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verib.

"Kəpəz"-"Turan Tovuz" oyununda meydan sahibi komandanın azarkeşləri kütləvi şəkildə matçın rəsmi şəxslərinin ünvanına təhqiramiz ifadələr səsləndirdiyinə və bu hal cari mövsümdə ilk dəfə yaşandığına görə Gəncə təmsilçisinə xəbərdarlıq edilib.

Bundan başqa, qarşılaşmadan sonra "Mix" zona təşkil edilmədiyinə görə "Kəpəz" klubu 500 manat cərimə edilib. Həmçinin oyun zamanı zonaların tələblərinə riayət olunmadığı üçün "sarı-göylər" 500 manat cərimələnib. Eyni zamanda, "Turan Tovuz" azarkeşləri pirotexniki vasitələrdən istifadə etdikləri üçün klubu 1500 manat xərcə salıblar.

"Qarabağ"-"Araz-Naxçıvan" oyununda dörd futbolçusu sarı vərəqə ilə cəzalanan qonaq komanda 700 manat cərimə olunub.

"Sabah"-"Neftçi" matçında meydan sahiblərinin yeddi, qonaqların isə beş futbolçusu sarı vərəqə aldığı üçün klubların hərəsi 700 manat cərimə ödəyəcəklər. Bundan əlavə, "Sabah"ın baş məşqçisi Murad Musayev görüşün bərpasını ləngitdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün biri şərti olmaqla iki oyunluq cəzalanıb, klub isə 1000 manat cərimə edilib. Sınaq müddəti 3 ay təyin olunub.

Həmçinin ev sahibi komandanın azarkeşləri oyunun rəsmi şəxslərinin, qonaq fanatlar isə rəqib tərəfdarların ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirdiyinə görə hər iki kollektivə xəbərdarlıq edilib.

# Atıcımız Bakıdakı Dünya çempionatında qızıl medal qazandı

***Bakıda keçirilən atıcılıq üzrə 53-cü dünya çempionatı davam edir.***

"Unikal" xəbər verir ki, 25 metr məsafəyə tapançadan mərkəzə atəş açma növündə kişi və qadınların yarışı keçirilib.

Yekun nəticələrə əsasən, Azərbaycan komandası növbəti dəfə uğur qazanıb. Belə ki, ölkəmizi dünya çempionatında təmsil edən Nigar Nəsirova qızıl medal əldə edib. Gümüş medala yığmamızın digər üzvü Nərminə Səmədova yiyələnib. Üçüncü yerə Monqolustandan olan atlet Xişiqderger Enxbat sahib olub. Kişilərin mübarizəsində Almaniyanı təmsil edən Kristian Reytz qızıl medal qazanıb. Gümüş medalı Estoniyanı təmsil edən Peeter Olesk aktivinə yazıb. Sloveniya atleti Joze Çeper bürünc medala yiyələnib. Kişilər arasında komanda növündə Almaniya birinci, Koreya ikinci, Hindistan üçüncü olub.



# "Qarabağ"a transfer olunduğu gün bu 2 klubdan təklif alıb

***"Qarabağ"ın yeni transferi Andrey Lunyevi təklif göndərən iki klubun adı bəlli olub.***

Qol.az xəbər verir ki, bu barədə futbolçunun agenti Anton Smirnov Rusiya mətbuatına bildirib. Onun sözlərinə görə, Belçikanın "Kortreyka" və İsrailin "Makkabi" klublarından təklif alıblar.

"Belçikalıların təklifi daha konkret idi. Biz bu təklifə baxa bilərdik. Amma belə iş görülmür. Həmin vaxt artıq "Qarabağ"la bütün razılıq əldə olunmuşdu" - deyə o qeyd edib.

Xatırladaq ki, avqustun 19-da "Qarabağ" rusiyalı 31 yaşlı qapıçı Andrey Lunyevlə 1+1 illik müqavilə imzaladığını açıqlayıb.

Lunyev karyerası ərzində "Torpedo", "İstra", "Kaluqa", "Saturn Ramenskoye", "Ufa", "Zenit" komandalarında da oynayıb. O, son klubu "Bayer"də 2021-ci ildən çıxış edirdi və may ayında komandadan ayrılıb.

Andrey Rusiyanın əsas millisində 7 oyun keçirib.



# Boksçumuz ermənini nokaut edib finala yüksəldi



***Sloveniyanın Maribor şəhərində məktəbli boksçular arasında Avropa birinciliyində yarımfinal döyüşləri keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan millisinin 2 idmançısı finala yüksəlib. Şahin Aslanov (52 kq) gürcüstanlı Snadro Kapanadzeni 5:0 hesabı ilə məğlub edib. Boksçumuz həlledici görüşdə Nikolay Nikolayevlə (Bolqarıstan) üz-üzə gələcək.

Səftər Məmmədzadə (90 kq) isə yarımfinal döyüşünün taleyini ilk raundda həll edib. Təmsilçimiz ermənistanlı Aram Tumanyanı nokaut edərək tam üstünlüklə qələbə qazanıb. Məmmədzadə çempionluq üçün Yosip-Vladislav Kozakeviçlə qarşılaşacaq.




# "Bavariya"nın futbolçusu "Qalatasaray"ın hədəfində

***Serxio Ramos və Marko Verattini transfer etməyə çalışan "Qalatasaray"ın hədəfində daha bir ulduz futbolçu var.***

"Unikal" xəbər verir ki, "sarı-qırmızılar" "Bavariya"nın yarımmüdafiəçisi Rayan Qravenberx ilə maraqlanır. Bu barədə "Takvim" nəşri məlumat yayıb.

"Cim-Bom" 21 yaşlı niderlandlı üçün Münhen təmsilçisinə 10 milyon avroya icarə və 20 milyon avroya birbaşa satın alma təklifi göndərib.

Qeyd edək ki, Rayanın "Bavariya" ilə müqaviləsinin müddəti 2027-ci ilə qədərdir.

# "Siti" Bernardo Silva ilə müqaviləni uzatdı



***"Mançester Siti" yarımmüdafiəçisi Bernardo Silva ilə müqaviləni uzadıb.***

"Unikal" xəbər verir ki, bu barədə İngiltərə klubunun mətbuat xidməti məlumat yayıb. Silvanın yeni müqaviləsi 2026-cı ilin iyun ayına kimi nəzərdə tutulub.

Qeyd edək ki, portuqaliyalı futbolçu 2017-ci ildən "Siti"də oynayır. Bu müddət ərzində o, klubla birlikdə 15 titul qazanıb.

2022/2023 mövsümündə Silva "Mançester Siti"nin heyətində bütün turnirlərdə 54 oyuna çıxıb, 7 qol vurub və 6 qolun ötürməsini verib.

# "Qarabağ" "Olimpiya"ya qarşı

***"Qarabağ" klubu UEFA Avropa Liqasında növbəti oyununu keçirəcək.***

"Unikal" xəbər verir ki, Azərbaycan çempionu pley-off mərhələsinin ilk matçında Sloveniyanın "Olimpiya" klubunun qonağı olacaq.

"Stoyitse" stadionunda oynanılacaq qarşılaşma Bakı vaxtı ilə saat 22:00-da başlayacaq. Görüşü bolqarıstanlı FİFA referisi Georgi Kabakov idarə edəcək.

Qeyd edək ki, komandalar arasında cavab oyunu avqustun 31-də Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək.

# "Fənərbaxça" qapıçı transfer etdi

***"Fənərbaxça" növbəti transferini həyata keçirib.***

Qol.az klubun saytına istinadən xəbər verir ki, İstanbul təmsilçisi Zaqren "Dinamo"sundan Dominik Livakoviçi heyətinə qatıb. Xorvatiyalı qolkiperin bu gün İstanbula gedəcəyi vurğulanıb.

Qeyd edək ki, D.Livakovic 2015-ci ildən "Dinamo"da oynayırdı. 28 yaşlı qapıçı sözügedən klubda 207 oyuna çıxıb.